

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 87 (7342) / Çərşənbə, 15 may 2019-cu il




# Prezident İlham Əliyev Azərbaycanın Belçikadakı səfirliyinin yeni binasının açılışında iştirak edib

Bax səh. 2

## "Qalmaz" yeraltı qaz anbarında yeni kompressor stansiyası istismara verilib



⇨ Bax: səh. 6

## Bakıda Avropa Regional Sosial Təminat Forumu keçirilir



⇨ Bax: səh. 4

## Pekində Leyla Əliyevanın Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri ilə görüşü olub



⇨ Bax: səh. 2

⇧ Bax: səh. 6



*Hikmət Hacıyev:*

## Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar formatı dəyişməzdir

⇧ Bax: səh. 8



## Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşıdır

⇧ Bax: səh. 7



## Xoşbəxt insan haqqında qeydlər


6 FIFA prezidenti AFFA-ya təbrik məktubu göndərib

11 PAŞİNYANIN FOTOKAZUSLARI: beynəlxalq siyasətin təsadüfi və müvəqqəti "gözəgörünməzi"

16 Ürək ritmlərini ölçən ağıllı üzük hazırlanıb

# Prezident İlham Əliyev Azərbaycanın Belçikadakı səfirliyinin yeni binasının açılışında iştirak edib









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Brüsseldə ölkəmizin Belçika Krallığındakı səfirliyinin yeni binasının açılışında iştirak edib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov və binanın dizayneri, Belçikanın tanınmış memarı Filip Vanhereveqe dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər.

Brüsselin Tervuren prospektində yerləşən bina 2014-cü ildə Azərbaycan Respublikasının Belçika Krallığındakı səfirliyi tərəfindən alınıb, daxili əsaslı təmir edilib, fasadı isə yenilənib. Bina Avropa təsisatlarına çox yaxın məsafədə, Parmentier parkının yaxınlığında, çoxsaylı diplomatik missiyaların yerləşdiyi prospektdədir.

Azərbaycan Prezidenti binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış oldu. Binanın girişi dövlət rəmzləri ilə bəzədilib. Burada dünyanın müxtəlif şəhərlərinin məşhur muzeylərində saxlanılan Azərbaycan xalçalarının fotoları, həmçinin 1870-ci il Təbriz xalçası nümunəsində əllə toxunmuş xalça da var. Daxili tərtibat işləri zamanı Qobustan qayaüstü rəsmlərinə də yer ayrılıb. Binanın birinci və ikinci mərtəbələri səfirliyin iş otaqları üçün nəzərdə tutulub. Burada səfirin, müşavirlərin və digər əməkdaşların, həmçinin konsulluq xidmətinin işçilərinin otaqları bütün zəruri avadanlıqla təchiz olunub. Bir sözlə, əməkdaşların səmərəli fəaliyyəti üçün binada hər cür şərait var. Binada, həmçinin səfirlik işçilərinin mənzilləri yerləşir.



Dövlətimizin başçısı səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.

* * *

***Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatdı.***

# Pekində Leyla Əliyevanın Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri ilə görüşü olub



Mayın 14-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekində Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Li Syaolin ötən il Azərbaycana səfərini, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşlərini məmnunluqla xatırlayıb.

Xanım Li Syaolin rəhbərlik etdiyi təşkilatın Azərbaycan ilə əlaqələrindən danışaraq, bu işdə Heydər Əliyev Fondu ilə sıx əməkdaşlığın xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verdiyini deyib.

Leyla Əliyeva Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında səmərəli əməkdaşlığı xüsusi vurğulayaraq, bu çərçivədə təşkil olunan tədbirlərdən danışıb. Gələcəkdə bu cür layihələrin qarşılıqlı olaraq davam etdiriləcəyinə əminlik ifadə olunub.

## AKADEMİK VLADİMİR VOLOBUYEVİN 110 İLLİYİ QEYD EDİLƏCƏK



Prezident İlham Əliyev akademik Vladimir Volobuyevin 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

2019-cu ilin iyul ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kənd təsərrüfatı elmləri doktoru, professor Vladimir Rodionoviç Volobuyevin anadan olmasının 110 illiyi tamam olur.

Akademik Vladimir Volobuyev torpaqların meliorasiyası, geomorfoloji xəritələrin tərtibi, torpaqla iqlimin qarşılıqlı əlaqəsi və torpaq ekologiyasına dair böyük nəzəri-təcrübi əhəmiyyətə malik sanballı araşdırmalarının nəticələri kimi müəyyən etdiyi prinsip və apardığı hesablamalarla, irəli sürdüyü nəzəriyyə və işləyib hazırladığı təsnifatlarla Azərbaycanda torpaqşünaslığın inkişafına böyük töhfələr vermişdir. Onun rəhbərliyi altında yetişən yüksək ixtisaslı kadrlar tərəfindən respublikada torpaqşünaslıq üzrə çox sayda əsaslı tədqiqat işləri uğurla yerinə yetirilmişdir.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Milli Elmlər Akademiyası akademik Vladimir Rodionoviç Volobuyevin 110 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

# "Pekin Ekspo 2019" Botanika Sərgisində Azərbaycan pavilyonunun rəsmi açılışı olub

**Mayın 14-də Çin Xalq Respublikasının paytaxtında "Pekin Ekspo 2019" Botanika Sərgisi çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub. AZƏRTAC xəbər verir ki, açılışda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.**



"Təbiəti qoruyaq, daha yaxşı yaşayaq" mövzusunda keçirilən botanika sərgisində Azərbaycan milli pavilyonu Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə hazırlanıb. "Azərbaycan: təbiət və incəsənətin harmoniyası" adlanan milli pavilyonun ümumi konsepsiyası







ölkəmizin öz tarix və ənənələrinə sadiq qalaraq daim inkişafda olduğunu nümayiş etdirir. Pavilyonun spiralvarı forması Azərbaycanın davamlı, sabit inkişafını və dinamikliyini, eksteryerdə qoyulan nar ağacı isə ölkənin məhsuldar gələcəyini xarakterizə edir.

Pavilyonun interyer dizaynı ölkəmizin adət-ənənələrini nümayiş etdirir. Azərbaycan xalçalarının timsalında incəsənət və təbiətin yaxın əlaqəsi diqqətə çatdırılır, ətraf mühitin qorunmasının vacibliyi vurğulanır. Nümayiş olunan xalçalar Azərbaycanın xalçaçılıq məktəbləri üzrə dörd hissəyə bölünüb: Qarabağ, Təbriz, Gəncə-Qazax, Quba-Şirvan. Hər bir bölgəyə xas xalça motivləri xüsusi proyeksiya vasitəsilə döşəmə üzərində əks olunur.

Bundan başqa, Xarıbülbül gülünü rəqəmsal formatda əks etdirən eksponat da nümayiş etdirilir.

Sərgi ziyarətçiləri Azərbaycan pavilyonunda milli musiqi alətlərimizlə tanış ola, videomateriallar vasitəsilə Azərbaycan musiqisini dinləmək və milli rəqslərimizə baxmaq imkanı əldə edə bilərlər. Burada, həmçinin Azərbaycan milli geyimləri də təqdim olunur.

Qeyd edək ki, pavilyonda xalçalarda istifadə olunan rənglər əsasında landşaft dizaynı hazırlanıb və buna uyğun bitki çeşidləri əkilib. Burada, həmçinin Azərbaycan təbiətinə xas olan ağac və çiçəklər təqdim olunur.

Açılış mərasimində Azərbaycan incəsənət ustalarının



ifasında konsert proqramı təqdim olunub. Sərgi ziyarətçiləri Azərbaycan musiqisini dinləyib, rəqslərinə tamaşa ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Asiya sivilizasiyalar dialoqu" konfransı çərçivəsində iştirakçı ölkələrin mədəni irsinin nümayiş olunduğu sərgidəki Azərbaycan stendi ilə də tanış olub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çinin xarici işlər nazirinin müavini ilə görüşüb

**Mayın 14-də Çin Xalq Respublikasında səfərdə olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekində bu ölkənin xarici işlər nazirinin müavini Lı Yunçen ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Lı Yunçen iki ölkə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Çinin Azərbaycan ilə əməkdaşlığının daha da dərinləşməsi üçün səylərini davam etdirəcəyini bildirib. O, Azərbaycanın mədəni irsi ilə seçilən ölkə olduğunu vurğulayaraq, son dövrlər Çində Azərbaycan mədəniyyəti ilə bağlı müxtəlif tədbirlərin keçirildiyini qeyd edib. Bildirib ki, bu cür tədbirlər xalqlarımız arasında dostluq münasibətlərinin dərinləşməsinə böyük töhfələr verir.

Nazir müavini Pekində keçirilən "Asiya sivilizasiyalar dialoqu" konfransında və konfrans çərçivəsində təşkil olunan tədbirlərdə Azərbaycanın fəal iştirakını məmnunluqla vurğulayıb.





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinin xalqlarımızın hələ tarixi İpək Yolu dövründən təməli qoyulan dostluq münasibətlərini daha da inkişaf etdirdiyini deyib.

Ötən ay Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakını yada salan Leyla Əliyeva diqqətə çatdırıb ki, ölkəmiz Çinin bu təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, bu layihə çərçivəsində iqtisadi, humanitar, mədəni sahələrdə əməkdaşlığı dərinləşdirməyə çalışır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanda Çinə, onun mədəniyyətinə, dilinə, ənənəvi təbabətinə böyük maraq olduğunu deyib. Leyla Əliyeva Heydər Əliyev Fondunun həmin istiqamətlərdə Çin ilə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.

# Bakıda Avropa Regional Sosial Təminat Forumu keçirilir







**Bakı şəhərində Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Regional Sosial Təminat Forumu öz işinə başlayıb. Üç gün davam edəcək Forumda BSTA-dan, digər beynəlxalq qurumlardan və 35 ölkədən nümayəndələr iştirak edirlər.**

Forumun açılışında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın Avropa qurumları ilə əməkdaşlığının daim inkişaf etdiyini vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların sosial təminat sahəsində də uğurlu nəticələr verdiyini, sosial müdafiə sisteminin gücləndirilməsi və müasir, şəffaf iş üsulları üzərində qurulması istiqamətində mühüm addımlar atıldığını deyib.



Ə.Əhmədov aparılan islahatlarda Avropanın müvafiq təşkilatları, Avropa ölkələri ilə əməkdaşlığa, fəal təcrübə mübadilələrinə xüsusi önəm verildiyini bildirib. O, növbəti Avropa Regional Sosial Təminat Forumunun Azərbaycanda keçirilməsi qərarına görə BSTA-ya minnətdarlıq ifadə edib, ötən dövrdə mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən Azərbaycanda bu Forumun da yüksək səviyyədə təşkil olunduğunu deyib.

BSTA-nın prezidenti Yoakim Bröyer bu gün Avropa ölkələrinin sosial təminat sistemlərində idarəçilik mexanizmlərinin əsas çağırışlara uyğun təkmilləşdirilərək mükəmməl şəkildə qurulması, problemlərin həll olunması üçün aparılan islahatlarda qarşılıqlı əməkdaşlıq mühitinin, qabaqcıl təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. O, hazırkı Forumun da bu məqsədə xidmət etdiyini və Avropa məkanının sosial təminat sistemlərindəki aktual məsələlərə innovativ yanaşmaların təqdim edilməsi və bölüşülməsi üçün əlverişli imkan yaratdığını deyib. Y.Bröyer Azərbaycanda əldə olunan sosial-iqtisadi nailiyyətləri, sosial sahədə innovativ yenilikləri maraqla izlədiklərini bildirib. BSTA prezidenti ölkəmizin bu Foruma layiqli şəkildə ev sahibliyi etməsindən razılıq ifadə edib, buna görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev artıq 15 ildir ki, BSTA ilə səmərəli əməkdaşlıq həyata keçirən ölkəmizin ötən dövrdə bu təşkilatın bir sıra tədbirlərinə ev sahibliyi etdiyini deyib. O bu dəfə BSTA-nın Avropa Regional Sosial Təminat Forumu kimi yüksək səviyyəli mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsinin fəxr hissi doğurduğunu bildirib. Nazir Avropa məkanında sosial təminatın inkişafına, gələcək sosial təhlükəsizliyin formalaşmasına nail olunması üçün birgə müzakirələrin və təcrübə mübadilələrinin aparılması baxımından Forumun əhəmiyyətini qeyd edib.

S.Babayev ölkə Prezidenti İlham Əliyevin uğurlu sosial inkişaf kursuna uyğun olaraq, ölkədə dinamik iqtisadi inkişafın təmin edilməsi şəraitində əldə edilən sosial uğurları, həmçinin son aylarda həyata keçirilən mühüm islahatları, atılan əhəmiyyətli addımları diqqətə çatdırıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) konsepsiyasını qeyd edib. Azərbaycanın sosial sahədə özünəməxsus yeni innovativ təcrübəsi - yeni yaradılan DOST Agentliyi və ilk "DOST" mərkəzi, 126 növdə sosial yönümlü xidmətin "bir pəncərə"dən, tam şəffaf və operativ, nəzakətlilik və son nəticədə vətəndaş məmnunluğuna nail olunması prinsipi ilə təqdim edilməsinə imkan verən "DOST" mərkəzləri şəbəkəsinin genişləndirilməsi üçün işlərin aparıldığını diqqətə çatdırıb.

Nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemində 18 altsistemin yaradıldığını deyən S.Babayev "E-sosial" internet portalı, "Məşğulluq" altsistemi, cari ilin əvvəlindən ölkədə ilk proaktiv xidmət kimi tətbiqinə başlanan avtomatlaşdırılmış pensiya təyinatı mexanizmi haqqında məlumat verib. Artıq on min nəfərə elektron qaydada pensiya təyin olunduğunu, bu ilin əvvəlindən "İşsizin DOSTu" proqramının artıq 36 min nəfər işsizin əmək müqaviləsi ilə ödənişli ictimai işlə təminatına imkan verdiyini deyib.



Nazir bu ilin ötən dövründə minimum pensiyaların və minimum əmək haqqının 40 faiz, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırıldığını qeyd edib. Şəhid ailələrinə qayğının artırılması, onların birdəfəlik ödənişlə təminatı, qaçqın və məcburi köçkünlərin müavinətlərinin, tələbələrin təqaüdlərinin artırılması, devalvasiyanın təsirlərinin aradan qaldırılması, fiziki şəxslərin problemli kreditlərinin həlli sahəsində atılan əhəmiyyətli addımları diqqətə çatdırıb. O, təkcə cari ilin ötən dövründə reallaşdırılan uğurlu sosial paketin 3 milyon insanın rifahına ciddi dəstək olduğunu bildirib.



S.Babayev sosial təminat sistemi qarşısında dayanan çağırışlara uyğun islahatların davam etdirildiyini, pensiya sisteminin yeni inkişaf konsepsiyasının hazırlandığını, eləcə də sosial müavinət və əlilliyin qiymətləndirilməsi, reabilitasiya, əmək müfəttişliyi sistemlərinin, məşğulluq xidmətlərinin təkmilləşdirilməsi sahələrində aparılan islahatları, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərindəki artım tempini qeyd edib. Nazir, həmçinin əlilliyi olan şəxslərin sosial müdafiəsi işlərindən bəhs edib, mütərəqqi beynəlxalq yanaşmalar da nəzərə alınmaqla "Əlilliyi olan şəxslərin hüquqları haqqında" yeni qanunun qəbul edildiyini diqqətə çatdırıb. Şəhid ailələri və müharibə əlillərinin mənzillə, müharibə əlillərinin minik avtomobili ilə təminatı proqramının idən-ilə dəfələrlə genişləndirildiyini bildirib. O, Forumun əməkdaşlıq əlaqələrinin inkişafına da töhfə verəcəyini deyib, tədbirin işinə uğurlar arzulayıb.



Daha sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimlinin moderatorluğu ilə Azərbaycanın sosial müdafiə sisteminə, bu sahədə aparılan islahatlara dair panel iclas keçirilib. İclasda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov, nazirliyin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Fuad Musayev tərəfindən təqdimatlar edilib.

Sonra mətbuat konfransı keçirilib.

"Avropada sosial təminat sahəsində əsas çağırışlar" mövzusunda BSTA-nın baş katibi Marselo Abi-Ramia Kaetanonun çıxışı (Avropada sosial təminat sahəsində 10 əsas çağırış) və onun moderatorluğu ilə müvafiq mövzuda panel iclasının keçirilməsi ilə davam edib.

Forumun növbəti iki gün üçün gündəliyinə "Sosial təminatın idarə olunmasında mükəmməllik və yenilik" və "Avropanın sosial təminat sahəsində gələcəyinin qurulması" mövzularında plenar iclasların və paralel sessiyaların keçirilməsi daxildir.

BSTA Beynəlxalq Əmək Təşkilatının himayəsi altında 1927-ci ildə yaradılıb və əsas məqsədi sosial təminat sahəsində qabaqcıl standartları inkişaf etdirmək və təşviq etmək, bu sahədə beynəlxalq əməkdaşlığı həyata keçirməkdir. Mənzil-qərargahı Cenevrə şəhərində yerləşən təşkilat dünyanın Azərbaycan da daxil olmaqla 158 dövlətinin sosial təminat sahəsi üzrə fəaliyyət göstərən 330 qurumunu ətrafında birləşdirir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası istifadəyə verilib







Mayın 14-də Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək deyib ki, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, aparılan quruculuq işləri Ordubad rayonunu da əhatə edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət orqanlarının əməkdaşlarını və ictimaiyyət nümayəndələrini təbrik edərək deyib: Ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə sabitlik, iqtisadi inkişaf və tərəqqi vardır. Görülən işlər bunu bir daha təsdiq edir. İnsanların həyat səviyyəsi yüksəldilir, iş şəraiti yaxşılaşdırılır. Bu da dövlət orqanlarında qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinə imkan verir. Ordubad Rayon İcra Hakimiyyətinin binasında yaradılan şərait də imkan verəcək ki, kollektiv üzərinə düşən vəzifələri layiqincə yerinə yetirsin.

Ali Məclisin Sədri deyib: Ordubad rayonu bir şəhər, üç qəsəbə və 43 kənddən ibarət olmaqla İcra Hakimiyyəti tərəfindən idarə olunur. İcra Hakimiyyətinin kollektivi rayonun siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində fəaliyyətin normal təşkilini həyata keçirir. Bu tədbirlərin uğurla həyata keçirilməsi üçün müasir iş şəraiti olmalıdır. Ona görə də Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası yenidən quruldu. Bütün bunlar dövlətimizin öz vətəndaşlarına, dövlət qulluqçularına göstərdiyi qayğının daha bir nümunəsidir. Binada fəaliyyət göstərəcək dövlət qurumlarının əməkdaşları isə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməli, rayonun inkişafına öz töhfələrini verməlidirlər.

"Bu ilin mart ayından etibarən Ordubad rayonunun əhalisi 50 min nəfəri ötmüşdür. Ona görə də icra strukturunda dəyişiklik edilmiş, Ordubad Rayon İcra Hakimiyyətinin ştat cədvəlinə birinci müavin və digər ştatlar əlavə edilmiş, kollektivin əməkhaqqısı artırılmışdır", - deyən Ali Məclisin Sədri bu münasibətlə tədbir iştirakçılarını və sakinləri təbrik edib.

Ali Məclisin Sədri qurulanlardan səmərəli istifadə olunacağına əminliyini bildirib, bir daha kollektivi təbrik edib.

Sonra binaya baxış olub.

Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Fərrux Nağızadə minnətdarlıq edərək deyib ki, icra hakimiyyətinin yeni binası müasir memarlıq əsəridir.

Ümummilli lider Heydər Əliyevin binanın həyətindəki büstünün ətrafı abadlaşdırılıb, müasir işıqlandırma sistemi çəkilib, yaşıllıq salınıb.

### Dövlət qurumları yeni binada fəaliyyət göstərəcək

Mayın 14-də Ordubad şəhərində dövlət qurumları üçün yeni bina istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib. Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə Əli Qənbərov yaradılan şəraitə görə minnətdarlıq edib.

Ordubad Rayon Qeydiyyat Şöbəsinin rəisi Səriyyə Hüseynova fəaliyyəti üçün hərtərəfli şəraitin olduğunu bildirib və minnətdarlıq edib.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması, dövlət təşkilatları ilə vətəndaşlar arasında sənəd dövriyyəsinin, xüsusilə də əmlak və torpaq məsələləri ilə bağlı müraciətlərin elektron formada qəbulu və cavablandırılması barədə tapşırıqlar verib.

### Culfa-Ordubad avtomobil yolunun tikintisi davam etdirilir

Mayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov avtomobil yolunda görülən işlərlə maraqlanıb.

Ali Məclisin Sədri keyfiyyətin əsas götürülməsi, çay yataqlarında selqırıcı bəndlərin tikilməsi, eləcə də kənd yollarının təmirinə diqqət yetirilməsi barədə tapşırıqlar verib.

# Ekspert: İqtisadiyyatın yeni inkişaf strategiyası 5 illik müddəti əhatə edəcək



Azərbaycan Cənubi Qafqazda həm ümumilikdə, həm də regionlar üzrə əhali artımının müşahidə olunduğu yeganə ölkədir. Bu barədə Dünya Bankının "South Caucasus in Motion" adlı hesabatında qeyd olunur. Hesabatda bildirilir ki, ölkəmizdə əhalinin 53,1 faizi şəhərlərdə yaşayır. Qeyd olunur ki, 2000-2015-ci illərdə Azərbaycanda ümumi daxili məhsul orta hesabla ildə 11 faiz artıb: "Bu əhəmiyyətli artıma yüksək sosial transferlər sayəsində yoxsulluğun azaldılması və real əməkhaqqının kəskin artımı səbəb olub. Ölkədə adambaşına düşən real ümumi daxili məhsulun orta illik artımı Abşeron iqtisadi rayonunda 3 faiz, Naxçıvan Muxtar Respublikasında isə 10 faiz arasında dəyişir".

Heç şübhəsiz ki, Azərbaycanda ümumi daxili məhsulun artımı ölkəmizdə güclü iqtisadiyyat modelinin mövcud olması ilə əlaqədardır. Hazırda Azərbaycanda iqtisadiyyatın yeni inkişaf strategiyası hazırlanır və ölkəmizdə aparılan islahatlar beynəlxalq qurumlar tərəfindən dəstəklənir.

Ölkə iqtisadiyyatının inkişafı istiqamətində hazırlanan yeni strategiyanın əhəmiyyəti barəsində danışan iqtisadçı ekspert Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirdi ki, inkişaf strategiyası "Makkenzi" şirkəti tərəfindən hazırlanır və 5 illik müddəti əhatə edəcək: "Strategiya hazır olduqdan sonra yerli mütəxəssislərlə də müzakirəsi həyata keçiriləcək. Müzakirə bitdikdən sonra strategiyanın dövlət başçısı tərəfindən təsdiq olunması gözlənilir".

V.Bayramov vurğuladı ki, "Makkenzi" şirkəti bir sıra ölkələr üçün də inkişaf strategiyası hazırlayıb: "Həmin strategiyalarla tanış olmuşuq. "Makkenzi" şirkətinin hazırladığı strategiyada diqqətçəkən məqamlardan biri də hər bir sektor üzrə konkret ideya və layihələrin olmasıdır. Eyni zamanda, fəaliyyətlərin ümumi daxili məhsula, məşğulluğa necə təsir göstərməsi də qeyd olunur".

Həmsöhbətimiz qeyd etdi ki, inkişaf strategiyasının hazırlanması və qəbul olunması iqtisadi inkişafa daha sistemli yanaşmanın nümayiş etdirilməsinə imkan verəcək: "Strategiya qəbul olunduqdan sonrakı 5 il ərzində ölkədə həm sistemli, həm sosial baxımdan dərinləşmiş islahatlar həyata keçiriləcək. Hazırlanacaq yeni strategiya ölkə iqtisadiyyatının inkişafına səbəb olacaq".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# "Fuji Optical"ın xeyriyyəçilik fəaliyyəti əsl humanizm nümunəsidir



Mayın 14-də Azərbaycan Respublikasının Nazirlər Kabinetində Yaponiyanın "Fuji Optical" şirkətinin rəhbəri Akio Kanainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazirin müavini Əli Əhmədov "Fuji Optical" şirkətinin ölkəmizdə həyata keçirdiyi xeyirxah missiyaların yüksək qiymətləndirildiyini söyləyib. O, minlərlə qaçqın, məcburi köçkün və aztəminatlı ailəyə yüksəkkeyfiyyətli eynəklərin paylanıldığını, onların ödənişsiz göz müayinəsi xidmətlərindən faydalandığını, bunun əsl humanizm nümunəsi olduğunu vurğulayıb.

Görüşdə qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verilib.

Akio Kanai Azərbaycanda bu xeyirxah missiyanı həyata keçirməkdən məmnunluğunu bildirib. O, ölkəmizdə bu kimi xeyriyyə tədbirlərini davam etdirəcəklərini diqqətə çatdırıb. A.Kanai missiyanın ərsəyə gəlməsində köməyi olan hər kəsə, o cümlədən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib.

# Əli Əhmədov: Azərbaycanın mənafeyinə hörmətlə yanaşan istənilən beynəlxalq təşkilatla əməkdaşlıq etməyə hazırıq

Azərbaycan Avropa İttifaqı (Aİ) ilə Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq edir və bu əməkdaşlığa böyük önəm verir.

Bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov jurnalistlərə açıqlamasında deyib.

Əli Əhmədov bildirib ki, Azərbaycan bütün beynəlxalq qurumlarla, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlıqda maraqlıdır: "Azərbaycanla Aİ arasında bir sıra məsələlər müzakirə olunur. Birmənalı şəkildə istənilən əməkdaşlıqda Azərbaycanın maraqları nəzərə alınacaq. Azərbaycanın mənafeyinə hörmətlə yanaşan istənilən beynəlxalq təşkilatla əməkdaşlıq etməyə hazırıq".

# Baş redaktor: Beləlderində heç tula qədər də sədaqət yoxdur



"Bu gün həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu, siyasi çəkisi durmadan artır. Möhtərəm Prezidentimiz mütəmadi olaraq xarici ölkələrdə rəsmi və işgüzar səfərlərdə olur, eyni zamanda xarici ölkələrin dövlət və hökumət başçılarını respublikamızda qəbul edir, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunur, faydalı əməkdaşlıqlar qurulur və daha da genişləndirilir. Dövlətimizin başçısı xarici səfərlərdə keçirdiyi görüşlər zamanı Azərbaycanın haqlı mövqeyini, həqiqətlərimizi dünya ictimaiyyətinin diqqətinə çatdırır, xalqımızın, dövlətimizin milli maraqlarını müdafiə edir. Məhz bu, Azərbaycanı dünyada güclü, söz sahibi edən əsas amillərdən biridir". Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanın bu uğurlarını gözü götürməyən bəzi daxili və xarici düşmənlər hər fürsətdə öz çirkin niyyətlərini reallaşdırmağa çalışırlar: "Təəssüf ki, milli mənsubiyyəti azərbaycanlı olan beləlarinə də rast gəlirik. Xaricdə oturub adını azərbaycanlı qoyan, lakin bu Vətənə layiq olmayan, bu dövlətə ermənidən daha kəskin şəkildə düşmən mövqedə duran belə ünsürlər ermənilərin və ermənipərəst qüvvələrin diktəsi altında hərəkət edirlər. Məqsəd isə birdir: Azərbaycanın nüfuzunu ləkələmək, onu gözdən salmaq, bununla da öz "ağalarının" tapşırıqlarını yerinə yetirmək və qarşılığında "tula payı" almaq. Ancaq iş ondadır ki, belələrində heç tula qədər də sədaqət yoxdur".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, bugünlərdə Brüsseldə bir neçə xəyanətkarın Azərbaycan Prezidentinin dayandığı otelin qarşısında aksiya keçirmək cəhdi də ölkəmizə qarşı aparılan çirkin siyasətin növbəti təzahürüdür: "Ermənilərin və erməniperəst qüvvələrin əlində sadəcə alət, vasitə olan bu kimi antimilli ünsürlər pul qarşılığında Vətəni, torpağı satmağa hazır olan küçə təfəkkürlü canlılardır. Onlar normal insana məxsus şərəf, ləyaqət, heysiyyat və bu kimi digər anlayışlardan məhrumdurlar. Çünki normal düşünən heç bir insan öz xalqına, dövlətinə bu pisliyi, xəyanəti etməz. Göründüyü kimi, onlar üçün pul Vətəndən, şərəf və ləyaqətdən daha üstündür. Hesab edirəm ki, xalqımız bu cür ünsürlərin qiymətini və cavabını çoxdan verib. Belələrinə qalan isə onun-bunun qabağında quyruq bulayıb, şərəfsiz və ləyaqətsiz ömür sürmək olacaq..."

# "Qalmaz" yeraltı qaz anbarında yeni kompressor stansiyası istismara verilib











**Ötən gün SOCAR-ın prezidenti Rövnəq Abdullayevin iştirakı ilə "Qalmaz" yeraltı qaz anbarının qaz həcminin 1 milyard kubmetrdən 1,5 milyard kubmetrə çatdırılması məqsədilə inşa edilmiş 3 saylı yeni kompressor stansiyasının istismara verilməsi mərasimi keçirilib.**

"İki sahil" SOCAR-ın saytına istinadən bildirir ki, gündəlik məhsuldarlığı 3 milyon kubmetr həcmində olan yeni kompressor stansiyası "Qalmaz" yeraltı qaz anbarının sutkalıq məhsuldarlığını 30 faiz artıraraq 10 milyon kubmetrdən 13 milyon kubmetrə çatdıracaq. Anbara əlavə qaz həcmlərinin vurulması təbii qaza olan tələbatın kəskin artdığı qış aylarında tədarük edilmiş qaz həcmlərinin daha böyük həcmdə çıxarılması və istehlakçılara çatdırılması üçün şərait yaradır.

Yeni stansiya SOCAR-ın "Nefqazelmitədqiqatlayihə" İnstitutu tərəfindən layihələndirilib, inşası "Azneft" İstehsalat Birliyinin sifarişi əsasında SOCAR-ın "Neftqaztikinti" Tresti tərəfindən həyata keçirilib. Layihəyə əsasən stansiya həm birpilləli, həm də ikipilləli rejimdə işləyəcək.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirib ki, yeraltı qaz anbarlarının genişləndirilməsində əsas məqsəd ölkənin artan daxili tələbatını təmin etmək, istehlakçılara təbii qazı maksimum sürət və səmərə ilə çatdırmaqdır: "Biz yay aylarında yeraltı qaz anbarlarına təbii qazı tədarük edir, qış aylarında isə tələbat artdıqca anbarlardan çıxarıb istehlakçılara çatdırırıq. Yeni kompressor stansiyası vasitəsilə təbii qaz anbara daha böyük həcmlərdə vurulacaq, abonentlərə daha çox mavi yanacaq çatdırılacaqdır".









Qalmaz Yeraltı Qaz Anbarı 1975-ci ildə "Qalmaz" neft-qaz yatağının şimal-qərb hissəsində yaradılıb. "Qalmaz" neft-qaz yatağı Aşağı Kür çökəkliyinin şimal-şərq hissəsində Bakı şəhərindən 75 kilometr cənub-qərbdə yerləşir. Sahəsi 975 hektardır. "Qalmaz" yeraltı qaz anbarı məhsuldar qatın I, II, Abşeron və Ağcagil horizontlarında yaradılıb.

## FIFA PREZİDENTİ AFFA-ya TƏBRİK MƏKTUBU GÖNDƏRİB



FIFA prezidenti Gianni İnfantino Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına məktub göndərib.

AZƏRTAC xəbər verir ki, AFFA-nın prezidenti Rövnəq Abdullayevə ünvanlanan məktubda G.İnfantino Ağdamın "Qarabağ" klubunun Topaz Premyer Liqasının 2018-2019-cu il mövsümünün qalibi olması və ardıcıl altıncı dəfə bu titula yiyələnməsi münasibətilə beynəlxalq futbol ictimaiyyəti adından təbriklərini çatdırıb.

## *Hikmət Hacıyev:* Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar formatı dəyişməzdir



Brüsseldə Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında qısa söhbət olub.

Bunu Trend-ə özəl olaraq Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Onun sözlərinə görə, görüş Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsünün 10 illiyinə həsr olunmuş tədbir çərçivəsində baş tutub.

N.Paşinyanın açıqlamasına gəldikdə isə, Administrasiya rəsmisi qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasının əsas səbəbi Ermənistanın işğalçılıq siyasətidir: "Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoyduqdan sonra münaqişənin həllində irəliləyiş və bölgədə sülh təmin oluna bilər. Danışıqların formatına gəlincə isə, münaqişənin iki tərəfi vardır ki, bu da Ermənistan və Azərbaycandır, danışıqlar bu formatda aparılır".

# Xoşbəxt insan haqqında qeydlər

Elə insanlar var ki, şəxsiyyət olmalarını sübut etməyə ehtiyac yoxdur. Onlar öz davranışları, oturub-durmaları, danışıqları, səmiyyətləri ilə qəlbləri fəth edərlər. Belə insanlar hər kəs tərəfindən qəbul edilər, sevilər, saygı görər. Heç kim onlara çamur atmaz, atmağa cürət etməz. Atarsa belə, peşman olar. Çünki belə şəxsiyyətlər ləkə götürməz, günəş qədər hər kəsə görünən, aydın olduqları üçün tək çarə onlara saygı duymaqdır.

Xoşbəxt Yusifzadədən yazıram. Sözün bütün anlamlarında bir ağsaqqal Azərbaycanlıdır o. Neftçidir. Azərbaycan neft sənayesinin canlı tarixi - ensiklopediyasıdır. Əlbəttə, məşğuliyyət sahəmiz, yaşımız bizim hardasa haçansa rastlaşmağımıza, yoldaşlıq etməyimizə imkan verməyib. O, məni heç tanımır da. Amma mən onu daim izləyir, yaxşı tanıyır və ən yüksək səviyyədə saygı göstərirəm.

Bu günlərdə Az.TV-də rastlaşdıq onunla. Çəkilişdən çıxırdı, mənsə canlı efirə tələsirdim. Salam verdim, Heydər Əliyev Mükafatına layiq görülməsi münasibətilə təbrikimi çatdırdım və bir özçəkim rica etdim. Çoxdanın tanışı kimi qəbul etdi məni, səmimi yanaşdı və eyni səmimiyyətlə - təbəssümlə şəkil çəkdirməyə etiraz etmədi. Vaxtını çox almadım ağsaqqal şəxsiyyətin. Bir-birimizdən təbəssümlə ayrıldıq.

...Xoşbəxt Yusifzadə haqqında bir neçə ay öncə bir TV filminə baxmışdım. Özü və xanımı danışırdı. Çəkilişlərin çoxu Bakı həndəvərindəki bağ evində idi. Olduqca təvazökar, sadə bir bağ evi idi. Yəni əslində Azərbaycan mentalitetinə görə, bu qədər məşhur bir insan, üstəlik də ən yüksək səviyyədə daim saygı görən şəxsiyyətin villasından zərziba yağmalıdır. Lakin biz onun o bağ evini görüncə bir daha əmin oluruq ki, şəxsiyyətin yüksəkliyi heç də pul-dan-maldan, var-dövlətdən asılı olmur.

Xoşbəxt Yusifzadə uzun illərdir Azərbaycan neft sənayesində işləyir. Ulu öndər Heydər Əliyevin müasiri, ən saygı duyduğu, güvəndiyi Vətən övladlarından biri olub. Bir dönəm Prezident İlham Əliyevlə birlikdə ARDNŞ-də (SOCAR) işləyib. Çox səmimi münasibətləri olub. İndi də Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi münasibətləri var. İctimai rəyi yaxından izləyən biri kimi bilirəm ki, Xoşbəxt müəllim haqqında pis söz danışa biləcək heç kim yoxdur. Olması da mümkün deyil. Kənardan belə görünür, daxildə də elə olması şübhəsizdir.



Xoşbəxt müəllimə daxildə daimi saygı və güvənin olmasını Prezident İlham Əliyevin onun haqqında dediyi sözlər, dövlət təltifləri də təsdiq edir. Bugünlərdə də bu böyük şəxsiyyət Azərbaycan dövlətinin ən ali təltiflərindən birinə - Heydər Əliyev mükafatına layiq görüldü. Həmin təltifetmədə etdiyi çıxış o qədər səmimi, o qədər ürəkdən idi ki, bu cür insanlarla bir dövrdə yaşamaq həqiqətən də bizi xoşbəxt edəcək amillər sırasındadır.

Əminəm ki, Xoşbəxt Yusifzadə haqqında qalın-qalın kitablar yazmaq olar. Onun neft sənayesindəki yeri və rolu, ulu öndər Heydər Əliyevlə birlikdə işlədiyi dövr, Prezident İlham Əliyevlə istər SOCAR-dakı işbirliyi, istərsə də indiki münasibətləri ayrıca araşdırma mövzusudur. Həm də bir örnəkdir. Gənclər - gələcək nəsillər üçün örnək.

Bu şəxsiyyətin təvazökarlığı, əlindəki imkanlardan heç vaxt sui-istifadə etməməsi, Prezidentə yaxınlığını belə fürsətə çevirməməsi onun böyüklüyünün - zirvə şəxsiyyət olmasının ən gözəl sübutudur. Əslində, heç bunun da sübuta ehtiyacı yoxdur. Elə kənardan baxanda da bilinir ki, Xoşbəxt müəllim sadəcə dövlətə, millətə, Vətənə təmənnasız xidmət etməyi xoşbəxtliyin zirvəsi sanır, bütün ömrünü də belə yaşayır.

Bilmirəm, onun adının bu həyat hekayəsinə nə qədər təsiri var. Lakin əminliklə demək olar ki, bu adı ona qoyan hər kimdirsə, o da elə Xoşbəxt müəllimin özü kimi təvazökar, alicənab, səmimi və güvənli insan olub. Elə olmasaydı Xoşbəxt müəllimə Tanrı belə bir örnək həyat cızmazdı.

Nə deyim? Bir daha təbrik edirəm, Xoşbəxt müəllim! Siz nəinki Azərbaycanın, bütün dünyanın ən yüksək mükafatlarına layiqsiniz. Bunu kənardan baxan, az-çox insanları tanımağı bacaran birisi kimi deyirəm. Örnək şəxsiyyətsiniz, böyük insansınız. Bizim kimi insanların sizin kimi ağsaqqallara həmişə ehtiyacımız var, olacaq. Siz neft sənayemizin bütün anlamlarda ağsaqqalısınız. Özü də şəxsən Prezident İlham Əliyevin də sevdiyi bir ağsaqqalı.

Və nə yaxşı ki, bizim sizin kimi ağsaqqallarımız var. Həyat sizin kimi insanlarla gözəldir, Xoşbəxt müəllim. Çox yaşayın, hər zaman var olun.

**Azər Həsrət**

# İradə Hüseynova BMT-nin "Elm və sülh səfiri" beynəlxalq tituluna və "Avropa Xidmət Ordeni"nə layiq görülüb

## Professor İradə Hüseynova İsveçrənin Cenevrə şəhərində BMT-nin Təltiflər Şurası tərəfindən dünya elminə və təhsilinə göstərdiyi xidmətlərə görə "Elm və sülh səfiri" beynəlxalq tituluna və mükafatına, həmçinin "Avropa Xidmət Ordeni"nə layiq görülüb

Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP-ın Humanitar məsələlər üzrə komissiyasının sədr müavini, YAP Respublika Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Azərbaycanın Əməkdar müəllimi, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Rusiya Federasiyası Pedaqoji Akademiyasının, Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü, elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə (Oksford, İngiltərə) Beynəlxalq "Sokrat" mükafatı və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Qızıl Ulduz mükafatının laureatı İradə Hüseynova 2019-cu il mayın 10-da BMT-nin Təltiflər Şurası (İsveçrə, Cenevrə) tərəfindən dünya elminə və təhsilinə göstərdiyi xidmətlərə görə "Elm və sülh səfiri" beynəlxalq tituluna və mükafatına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, professor İradə Hüseynova dünya elminə və təhsilinə göstərdiyi xidmətlərinə görə, həmçinin BMT-nin Təltiflər Şurası tərəfindən "Avropa Xidmət Ordeni" ilə təltif edilib.

Tarixçi alim İradə Hüseynova görkəmli dövlət və siyasi xadim, ümummilli lider Heydər Əliyev haqqında "Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu" adlı ilk doktorluq dissertasiyasının müəllifidir. Onun doktorluq dissertasiyasının müdafiəsi ilə elmin yeni istiqaməti - Əliyevşünaslıq elminin əsası qoyulub. Professor İradə Hüseynova, həmçinin ulu öndər Heydər Əliyevin dövlətçilik və siyasi fəaliyyətinə həsr edilmiş bir sıra sanballı elmi monoqrafiyaların və dərsliklərin müəllifidir.

Əliyevşünas və qafqazşünas alim İradə Hüseynova 300-ə yaxın elmi əsərin - Əliyevşünaslıq elminə dəyərli töhfələr olan "Dövlətçilik naminə" (Bakı, 2001), "Müstəqilliyimizin təminatçısı" (Bakı, 2003), "Müstəqil Azərbaycan dövlətinin qurucusu" (Bakı, 2004), "Qeydar Aliev - ot politiçeskoqo rukovoditelə k obhenaüionalğno-



mu lideru" (Bakı, 2005), "Tarix. Zaman. Düşüncələr." I cild. (Bakı 2016) adlı monoqrafiyaların, Qafqazşünaslıq sahəsində - "Qafqaz xalqlarının tarixi" (Bakı, 2006), "Heydər Əliyev və Qafqazda sülh prosesi" (Bakı, 2008) adlı fundamental dərsliklərin, postsovet məkanında ilk dəfə olaraq "İstoriçeskaə gnüiklopedia Kavkaza" (Bakı, 2010) adlı irihəcmli ensiklopedik nəşrin müəllifidir. Ayrı-ayrı illərdə professor İradə Hüseynovanın tədqiqat əsərlərinə dəfələrlə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən müəllliflik hüququ verilib və alimin əsərləri Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən mühüm elmi nəticə kimi illik hesabatlara daxil edilib.

Professor İradə Hüseynovanın monoqrafiyaları, o cümlədən "Qafqazın tarixi ensiklopediyası" dünyanın 63 ölkəsinin aparıcı milli kitabxanalarına göndərilib. Bu əsərlər dünya elmi ictimaiyyətində böyük maraq doğurduğuna görə onların yenidən əldə edilməsi üçün ABŞ, Rusiya, Yaponiya, Tayvan, Kanada, Misir, eləcə də Avropa ölkələrindən alimin vətəninə sifarişlər gəlib. Onun monoqrafiyaları və dərslikləri respublikamızın bir çox universitetlərində, həmçinin xarici ölkələrin - Almaniya, İngiltərə, Rusiya, Gürcüstanın ali məktəblərində Qafqaz tarixinin tədrisi üçün əsas mənbə olmuşdur.

Görkəmli alim və pedaqoq, həmçinin Qafqaz xalqlarının tarixinə dair ümumi kurs proqramlarının (Bakı 1998; Bakı 2014), dərs vəsaitinin (Bakı 1999), magistr hazırlığı üçün "Heydər Əliyev və Qafqazda sülh prosesi" (Azərbaycan, rus və ingilis dillərində, Bakı, 2003), "Qafqazşünaslığa giriş" (Bakı 2014), "Qafqazın siyasi sistemi" (Azərbaycan və rus dillərində, Bakı, 2016), "Qafqazın xarici siyasəti" (Azərbaycan və rus dillərində, Bakı, 2016), "Qafqaz və Yaxın Şərqin ərəb ölkələri" (Azərbaycan və rus dillərində, Bakı, 2016), "Qafqaz tarixinin aktual problemləri" (Bakı, 2017), "İlham Əliyev və müasir dövrdə Qafqazda əməkdaşlığın inkişafı" (Bakı, 2017) adlı tədris proqramlarının müəllifidir.

Professor İradə Hüseynovanın uzun illər zəhmətinin, ilkin mənbələrə, arxiv sənədlərinə, mövcud tarixi ədəbiyyata, çoxsaylı xarici mənbələrə əsaslanan tədqiqatlarının nəticəsi, qiymətli mənbə olan Qafqaz xalqlarının sosial, iqtisadi, siyasi həyatını, mədəniyyətini, zəngin adət-ənənələrini, fəlsəfi baxışlarını, məişətini, milli-mənəvi dəyərlərini kompleks və sistemli şəkildə ən qədim zamandan müasir dövrə qədər hərtərəfli əks etdirən "Qafqaz xalqlarının tarixi" adlı 1248 səhifə həcmində (78 çap vərəqi) fundamental dərsliyi 2018-ci ildə nəfis şəkildə nəşr olunub. Görkəmli alimin həm tarix elminə, həm də qafqazşünaslığa dəyərli töhfə olan "İstoriə narodov Kavkaza" adlı monoqrafiyadərsliyi 2019-cu il aprelin 1-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 2018-ci ilin yekun-




larına dair hesabat məruzəsində ən mühüm elmi nailiyyət kimi qiymətləndirilib.

Tanınmış ictimai-siyasi və elm xadimi, müxtəlif vaxtlarda məsul dövlət vəzifələrində çalışan tarix elmləri doktoru, professor İradə Hüseynova Əliyevşünaslığın, qafqazşünaslığın inkişafında elmi məktəb yaratmışdır. Onun gənc kadrların hazırlanmasında böyük xidmətləri var. Professor İradə Hüseynovanın elmi rəhbərliyi ilə bir çox gənc alim elmi-tədqiqat işləri aparmış, fəlsəfə doktoru və elmlər doktoru adını almaq üçün dissertasiyalar müdafiə etmişdir, bu proses bu gün də əzmlə davam etdirilir. Əliyevşünaslıq məktəbi professor İradə Hüseynovanın yaratdığı dəyərli əsərlərlə, yeni-yeni tədqiqatlarla, fundamental araşdırmalarla, hazırladığı kadrlarla bu gün də zənginləşir və Azərbaycan dövlətçiliyinə xidmət edir.

Görkəmli alim, dəyərli ziyalı, milli təəssübkeşlik, milli dövlətçilik prinsiplərini hər zaman uca tutan İradə Hüseynova Azərbaycan elmini və təhsilini ABŞ, İtaliya, Fransa, Kanada, İsveç, İsveçrə, Danimarka, Avstriya, Rumıniya, Bolqarıstan, Rusiya, Türkiyə, Gürcüstan, Türkmənistan, Belarus, İsrail, Şri-Lanka və s. ölkələrdə keçirilmiş bir çox beynəlxalq elmi simpozium və konfranslarda uğurla təmsil etmiş, orada geniş elmi məruzələrlə çıxışlar etmişdir. Məruzələri nüfuzlu elmi dərgilərdə dərc olunub. Alimin fəaliyyət dairəsi kifayət qədər geniş və çoxşaxəlidir. Belə ki, o, bir neçə dəfə gender problemləri ilə bağlı ABŞ-ın Nyu-York şəhərində Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak etmiş, BMT-nin kürsüsündən qadın və kişilərin hüquqları, cəmiyyətdə yeri və rolu, təhsil sistemində gender problemləri ilə bağlı çıxışlar etmişdir.

Fədakar, zəhmətkeş alim, dəyərli ziyalı, professor İradə Hüseynovanı bu günlərdə qazandığı nailiyyəti - BMT-nin "Elm və sülh səfiri" beynəlxalq tituluna və mükafatına, həmçinin "Avropa Xidmət Ordeni"nə layiq görülməsi münasibətilə səmimi qəlbdən təbrik edir, ona dövlətçiliyimizin inkişafında yeni-yeni böyük uğurlar arzu edirik.

# Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşıdır

## Brüsseldə 3-4 nəfər antimilli ünsür Azərbaycanın uğurlarından qıcıqlanan və narahat olan ermənilərin sifarişlərini yerinə yetirməklə özlərini sözün əsl mənasında milli xəyanətin zirvəsinə yüksəltdilər



**Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında münasibətlər quran Azərbaycanın bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi nüfuz qazanması, ən əsası dünyada cərəyan edən proseslərə təsir imkanlarının genişlənməsi, söz sahibliyi, sözünün də imzası qədər dəyərinin olması bu günümüzün reallıqlarıdır. Dövlətimizin başçısı İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri bu kimi məqamlara bir daha aydınlıq gətirdi.**

Cənab İlham Əliyevin Belçikalıların kralı Əlahəzrət Fliplə, Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşləri çərçivəsində müzakirə olunan məsələlər, Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında, Şərq-Qərb nəqliyyat dəhlizinin reallaşdırılmasında rolunun yüksək dəyərləndirilməsi, əsas diqqətin yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəldilməsi və s. kimi biri-birindən mühüm məqamlar Azərbaycan-Avropa İttifaqı əlaqələrinin bugünkü inkişafına və perspektivlərə işıq saldı. Qeyd edək ki, ötən il dövlətimizin başçısı İlham Əliyevin Belçikaya səfəri zamanı imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədində də Avropa İttifaqının Azərbaycanla bütün sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün mövcud imkanlar qeyd edilib.

Ümumiyyətlə, Azərbaycanın xarici siyasətində Avropa istiqamətinin xüsusi yeri vardır. Avropa İttifaqına üzv olan böyük və nüfuzlu dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri mövcuddur. Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Belçika, Yunanıstan, Polşa, Rumıniya və digər Avropa ölkələri ilə əlaqələrimiz müxtəlif sahələrdə uğurla inkişaf edir. Qarşılıqlı səfərlər bu münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verir. Avropa İttifaqı ilə münasibətlərin sağlam təməl əsasında qurulmasının nəticəsidir ki, ölkəmiz hazırda bu təşkilatın bir çox proqramlarında fəal iştirak edir. Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur. Dövlət başçısının səfəri çərçivəsində keçirilən görüşlərdə də bu fikir xüsusi qeyd olunmuşdur ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşı və investorlarından biridir. "Tərəfdaşlıq prioritetləri" sənədində də vurğulanır ki, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Sənəddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur. Bu məqamı da xatırladaq ki, dövlətimizin başçısı İlham Əliyevin 2017-ci ildə Belçikaya səfəri zamanı Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi barədə bəyanat vermişdir. Aİ-nin tərəfdaş ölkələrdə bütün münaqişələrin həllinə vahid yanaşması 2017-ci ilin noyabrında Şərq Tərəfdaşlığının Brüssel sammitində bir daha təsdiqlənmişdi. Avropa İttifaqının Şərq Tərəfdaşlığının bütün ölkələrinin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün dəstəklənməsi üzrə Avropa İttifaqının öhdəliklərinin dəqiq vurğulandığı "Xarici siyasət və təhlükəsizlik haqqında qətnamə" qəbul edilmişdi. Bununla da qurum Ukrayna, Gürcüstan, Moldova və Azərbaycan ərazilərindəki münaqişələrin həllinə vahid yanaşmanı aydın nümayiş etdirmişdi. "Tərəfdaşlıq prioritetləri" sənədi, həmçinin imzalanması nəzərdə tutulan tərəfdaşlıq sazişi Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacaq.

Bu məqamlara diqqət yönəltməkdə məqsədimiz Azərbaycan-Avropa İttifaqı əlaqələrinin bugünkü səviyyəsi ilə yanaşı, bəzi daxili və xarici anti-Azərbaycan qüvvələrin çirkin əməllərinə səbəb olan uğurlarımızı nümayiş etdirməkdir. Qeyd etdiyimiz kimi, dövlətimizin uğurlu xarici siyasətinin, qətiyyətinin göstəricisi diplomatiyada qazandığı uğurların miqyasıdır. Siyasi qısqanclıqdan yaranan çirkin əməllər bizləri daim keçilən yolu təhlil etmək, dünənimizə bir nəzər yetirmək məcburiyyətində qoyur. Ötən illərdə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin görüşünü xatırlayaq. Dövlətimizin başçısı İlham Əliyevin avropalı parlamentarilara ünvanlanan açıq, məntiqli sözlərini, iradlarını təşkilatın təmsilçiləri də etiraf etdilər. Qurumla Azərbaycanın gələcək inkişafına aydınlıq gətirən, ədalətsiz olaraq Azərbaycanı guya insan hüquqlarının pozulması ilə ittiham edən Avropa Parlamentində ölkəmiz əleyhinə kampaniyanı ikili standartların növbəti mərhələsi kimi qonaqların diqqətinə çatdıran cənab İlham Əliyev fikirlərini real faktlar əsasında açıqlayaraq bildirmişdir ki, təşkilatla əməkdaşlığımız qarşılıqlı maraqlar və hörmətə əsaslanır. "Biz heç nə olmamış kimi davrana bilmərik. Biz buna aydınlıq gətirməliyik. Biz bunu aradan qaldırmaq üçün nə edə biləcəyimizə nəzər salmalıyıq. Əgər bu, belə qalsa və heç nə baş verməsə biz nə barədə danışa bilərik?" söyləyən ölkə Prezidenti İlham Əliyev onu da qeyd etmişdir ki, Avropa Parlamenti ilə münasibətlərdə böhran vəziyyətinin əmələ gəlməsinə baxmayaraq, əlaqələrin qarşılıqlı maraq əsasında inkişafında maraqlıyıq. Müstəqil dövlət kimi gələcək xarici siyasətini müdrikliklə müəyyənləşdirən, ölkəmizin siyasi, iqtisadi, sosial və bütün digər sahələrdə sürətli inkişafa nail olduğunu bildirən cənab İlham Əliyev ölkəmizdə ictimai-siyasi sabitliyin hökm sürdüyünü, söz, mətbuat, həmçinin sərbəst toplaşma və digər azadlıqların təmin edildiyini, azad internetin olduğunu, demokratik inkişaf yolunda mühüm addımların atıldığını diqqətə çatdırmaqla yanaşı, bu fakt da xüsusi qeyd olunmuşdur ki, Avropa Parlamentinin qətnaməsində Azərbaycanda demokratiya ilə bağlı qərəzli mövqe nümayiş etdirildiyi halda qurum Ermənistandakı demokratiyanın bərbad vəziyyəti və boğulması ilə bağlı hər hansı bir reaksiya verməyib.

Göründüyü kimi, qısa təhlil Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və roluna aydınlıq gətirməklə yanaşı, müstəqil siyasətimizin, uğurlarımızın çox zaman həzm edilməməsindən yaranan əks-təbliğat kampaniyalarına da diqqəti yönəldir. Bütün hallarda reallıq budur ki, Azərbaycan müstəqil dövlətdir, demokratik prinsiplər dünənimizin, bu günümüzün və sabahımızın əsasıdır.



Öncə qürurverici, eyni zamanda, dövlətimizin başçısı İlham Əliyevə etimadı və sevgini, ən əsası dəstəyi nümayiş etdirən bu məqamı xüsusi qeyd etməliyik ki, mayın 13-də Avropa azərbaycanlılarının təşəbbüsü ilə Brüssel şəhərində ölkə Prezidentinin qarşılanması və ona dəstək aksiyası keçirilib. Aksiyanın əsas təşkilatçısı Azərbaycan-Belçika Dostluq Cəmiyyətidir. Dəstək aksiyasına Almaniya, Hollandiya, Macarıstan, Belçika, Fransa və digər Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və üzvləri qoşulublar. Aksiyada "Cənab Prezident, Avropaya xoş gəlmisiniz!", "Cənab Prezident, Sizi salamlayırıq!" və s. kimi şüarlar səsləndirən soydaşlarımız Azərbaycan dövlətinin başçısını və onun siyasi kursunu daim dəstəklədiklərini bəyan edibələr. Təbii ki, bu dəstək həyata keçirilən siyasətə dəstək olmaqla yanaşı, harada yaşamasından asılı olmayaraq bütün soydaşlarımızın uğurlarımızla, güclü, qüdrətli Azərbaycanla qürur duymasının göstəricisidir. Həmvətənlərimiz bu dəstəkləri ilə cənab İlham Əliyevin ətrafında sıx birləşdiklərini, bütün səylərini müstəqil Azərbaycanımızın beynəlxalq aləmdə tanıdılmasına, reallıqlarımızın təbliğinə yönəltdiklərini nümayiş etdiriblər. Azərbaycançılıq təəssübkeşliyindən, dövlətinə, xalqına bağlılıqdan atılan bu addımla yanaşı, mayın 13-də Brüsseldə 3-4 nəfər antimilli ünsürün aksiya keçirmək cəhdi isə onların Azərbaycan dövlətinə və xalqına düşmən münasibətini əyani şəkildə nümayiş etdirdi. Vətəndaşlıq təəssübkeşliyi olmayan kəsdən dövlətin, xalqın xeyrinə addım gözləmək qeyri-mümkündür.

Bir xatırlamanı da edək ki, Azərbaycanla Avropa İttifaqı arasında imzalanması nəzərdə tutulan strateji tərəfdaşlıq sazişi gündəmə gətirildən bəzi daxili və xarici anti-Azərbaycan qüvvələr əks təbliğat kampaniyasını işə salıblar. Son zamanlar ölkəmizlə qurum arasında əlaqələrin yüksələn xətlə inkişafı bu qərəzli kampaniyanın daha da dərinləşməsinə rəvac verib. Şübhəsiz ki, Brüsseldə bir-iki nəfərin məqsədi və məramı özlərinə bəlli olmayan aksiya cəhdi də bu çirkin, qərəzli kampaniyanın tərkib hissəsidir. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafından narahatlıq keçirən xarici anti-Azərbaycan qüvvələr bu narahatlıqların qaynaqlanan çirkin ssenarilərini reallaşdırmaqda daxili bədxahlarımızdan bir vasitə kimi bəhrələnirlər. Kadrlardan da görünür ki, "plintus" səviyyəli, mağara təfəkkürlü bu qaraguruhçular nə qədər cılız, səviyyəsiz, tərbiyə və əxlaqi normaları tam deqradasiyaya uğramış, milli hissiyatını itirmiş və ləyaqət anlayışını unutmuş durumdadırlar. Onlar Azərbaycan dövlətinin və xaricdəki diasporumuzun erməni işğalına son qoymaq istiqamətində səylərinin zəifləndilməsinə, buna görə də erməni lobbisinin tapşırıqlarına əsasən dövlətimizi gözdən salmağa çalışırlar. Bu gün dünyanın gec də olsa, Azərbaycan həqiqətlərini, daha dəqiq desək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini dərindən dərk etmək istədiyi diqqətdən kənarda deyil. Azərbaycan dövlətinin uğurlu daxili və xarici siyasəti, real həqiqətlərə, tarixi faktlara əsaslanan təbliğatı bu uğurumuza yol açıb. Dövlətimizin başçısı İlham Əliyevin xarici ölkələrə elə bir səfəri yoxdur ki, keçirilən görüşlərdə Dağlıq Qarabağ problemi əsas müzakirə mövzusu olmasın. Keçirilən beynəlxalq səviyyəli tədbirlərdə erməni yalanlarının ifşasına xidmət edən reallıqlarımız diqqət mərkəzində olur. Dövlətimizin başçısı İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşündə, həmçinin Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə şam yeməyində də dövlətimizin başçısı İlham Əliyev Şərq Tərəfdaşlığı Proqramının iştirakçısı olan Ermənistan və Azərbaycan arasında münaqişənin öz həllini tapmamasını təəssüflə qeyd etmişdir. Münaqişənin 25 ildən çoxdur ki davam etdiyini bildirən cənab İlham Əliyev bir daha bəyan etmişdir ki, problem yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.



Bu faktlar Brüsseldə bir-iki xəyanətkarın aksiya cəhdinin əsl məqsəd və məramını açıqlayır. Bu ünsürlər Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsindən, dövlətimizin uğurlarından qıcıqlanan və narahat olan ermənilərin sifarişlərini yerinə yetirməklə özlərini sözün əsl mənasında milli xəyanətin zirvəsinə yüksəltdilər. Bu adamlar hakimiyyətə deyil, Azərbaycan dövlətinə və xalqına qarşı düşmən münasibətlərini artıq açıq-aşkar nümayiş etdirirlər. Təəssüflər olsun ki, ermənilər və erməni diasporu ilə işbirliyində olub, onlardan aldıqları pula görə öz dövlətinə və xalqına qarşı düşmən münasibətdə olan, ölkəsini gözdən salmaq üçün ən çirkin yollara əl atmaqdan belə çəkinməyən bu cür xəyanətkarlar vardır. Onların özlərini azərbaycanlı adlandırmağa mənəvi haqları varmı? Vətənpərvərlik, vətəndaşlıq təəssübkeşliyi insanın daxili duyğularıdır. Bu duyğulardan, hisslərdən məhrum olan insanlar mənəviyyatsız, simasızdılar. Bu gün ölkə ictimaiyyəti Brüsseldə eyni günə təsadüf edən iki aksiyanı izləyib təhlil etməklə dövlətinə, xalqına xəyanət yolunu tutanların dövləti, xalqı üçün ayağa qalxan Vətən təəssübkeşlərinin fonunda cılızlıqlarını, riyakarlıqlarını daha aydın görür və dəyərləndirir. Vətənə xəyanət heç kəsə başucalığı gətirməyib və gətirməyəcək.

Bütün bu kimi qərəzli kampaniyalara tutarlı cavab Azərbaycanın müstəqillik tarixinin günbəgün zənginləşən uğur səhifələridir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bizim əsas məqsədimiz gələcəyə baxışımızdır. Azərbaycan müstəqil siyasəti, tarixi faktlara əsaslanan təbliğatı ilə daim irəliləyir, dünya birliyinin fəal üzvü kimi beynəlxalq ictimaiyyətə "həqiqətlərə ədalət gözü ilə baxaq" çağırışını edir.

✍ Yeganə Əliyeva,
*"İki sahil"*

# Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada iftar süfrəsi açılıb



Rusiya paytaxtında Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan Günü təşkil edilib və iftar verilib.

"Report"un Moskva bürosunun məlumatına görə, mayın 14-də Rusiya Müftilər Şurasının dəstəyi ilə Moskvada "Poklonnaya qora"dakı məscidin yaxınlığında təşkil olunan tədbirdə ictimai təşkilatların, Azərbaycanın bu ölkədəki səfirliyinin, Heydər Əliyev Fondunun və azərbaycanlıların digər diaspor təşkilatlarının nümayəndələri, eləcə də müxtəlif millətlərdən olan dindarlar, ümumilikdə 1000-dən çox insan iştirak edib.

Əvvəlcə "İxlas" Fondunun nümayəndəsi Anas Məmmədov müqəddəs ayın mahiyyətindən, oruc tutmağın faydasından danışıb.

Tədbirdə çıxış edən "Əhli-beyt" cəmiyyətinin sədri Nizami Baloğlanov bildirib ki, Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən iftar süfrəsi ilk öncə Azərbaycanda islam dininə olan hörmətin göstəricisidir.

Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Vüqar İmaməliyev çıxış edərək, səfir Polad Bülbüloğlunun salamlarını qonaqlara çatdırıb. O, 1993-cü ildən Ramazan bayramının Azərbaycanda dövlət səviyyəsində qeyd olunduğunu bildirərək, müsəlmanların bayramını təbrik edib.

Rəsmi çıxışlardan sonra müğənni Samir Salam dini mahnılar və xalq mahnıları ifa edib. Sonra müqəddəs Qurani-Kərimdən surə və iftar duası oxunub. Həmvətənlərimiz iftar süfrəsinə düzülmüş Azərbaycan milli yeməklərindən və şirniyyatlarından dadıblar.

Tədbirdə Azərbaycan haqqında videoçarx nümayiş etdirilib. "Baku" jurnalının nüsxələri, multimedia diskləri, ölkəmizin gözəl məkanlarının əks olunduğu açıqcalar paylanılıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi artıq 14 ildir, Rusiya Müftiləri Şurasının "Ramazan çadırı" layihəsində iştirak edir.

✍ **İqbal Rüstəmov**

# Müşfiq Ələsgərli Avropa Jurnalistlər Federasiyasının Baş Toplantısında iştirak edib







Estoniyanın paytaxtı Tallin şəhərində Avropa Jurnalistlər Federasiyasının (AJF) Baş Toplantısı keçirilib. 08-11 may tarixlərində keçirilən, 36 ölkədən EFJ-yə üzv təşkilatların 90 nəfər təmsilçisinin qatıldıqları toplantıda Azərbaycandan AJF-nin yerli üzv təşkilatı - Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ) iştirak edib.

JuHİ sədri Müşfiq Ələsgərli bildirib ki, toplantıda öncə AJF-nin təşkilati məsələləri həll edilib, növbəti 3 il üçün qurumun prezidenti, vitse -prezidenti və İdarə Heyətinin üzləri seçiliblər. AJF prezidenti postuna növbəti 3 il üçün təkrarən Moqan Bliçer Bjerqard seçilib.

Toplantıda AJF-nin Müəllif hüquqları, Frilanslarla iş, Gender problemləri, Etik standartlar, Təhlükəsizlik və sair məsələlər üzrə komissiyalarının hesabatları dinlənilib. Komissiyaların hesabatları fonunda Avropa qitəsində mediaın durumu müzakirəyə çıxarılıb. Müzakirələrin gedişində bəlli olub ki, qitənin media sahəsində problemləri kifayət qədər çoxdur: "Maliyyə institutlarının, reklam verən təşkilatların öz layihələrini təmin etmək üçün ənənəvi mediaya deyil, yeni mediaya, sosial şəbəkələrə üstünlük verməi peşəkar medianı çıxılmaz duruma salıb. Maliyyə mənbələrinin daralması peşəkar medianın imkanlarını tükədir, bu isə qeyri-standart xəbər istehsalçılarının mövqelərinin möhkəmlənməsinə şərait yaradır; ənənəvi xəbər standartları sıradan çıxarılır, gündəm yalan xəbərlə (Fake news) dolur". Baş Toplantı iştirakçılarının yekdil fikri bu olub ki, "Fake news"la mübarizənin ən sadə yolu, peşəkar medianın imkanlarının artırılmasına bağlıdır.

AJF adından Avropa Parlamenti üzvlüyünə namizədlərə, 19 may seçkilərinə qatılacaq namizədlərə müraciət edilib. Onlardan öz seçki platformalarına peşəkar medianın imkanlarının artırılması üçün maddələr əlavə etmək istənilib. Toplantı adından qərar verilib ki, bu yöndə çalışmalar davam etdirilsin.

Baş Toplantıda, həmçinin, vurğulanıb ki, Avropa məkanında peşəkar medianın imkanlarını daraltmaq üçün süni müdaxilələr də çoxalıb: "Peşəkar medianın problemlərinin artması bir yandan dərinləşməkdə olan maliyyə sıxıntıları, jurnalistlərin sosial durumlarının pisləşməsi, təhlükəsizlik, təqib halları ilə bağlıdırsa, digər tərəfdən qanunların mürtəce yöndə dəyişdirilməsi xüsusi rol oynayır. Əmək qanunvericiliyinə edilən neqativ dəyişikliklər və media sahibkarlarının KİV standartlarına müdaxilə imkanlarının artırılması; İctimai yayım haqqında qanunlara antidemokratik maddələrin əlavə edilməsi və bunun Avropanın aparıcı dövlətlərində kütləvi hal alması; "Fake news"la mübarizə haqqında qanunların gündəmə gəlməsi, bunun fonunda ifadə azadlığı sərhədlərinin daraldırılmasına cəhdlərin artması narahatlıq doğuran məqamlar kimi qeyd edilib. Toplantıda peşəkar jurnalistika prinsiplərinin qorunub inkişaf etdirilməsi üçün təkliflər müzakirə edilib.

JuHİ sədri toplantı çərçivəsində aparılan müzakirələrdə iştirak etməklə yanaşı, bir sıra ölkələrin jurnalist təşkilatları ilə ikitərəfli əməkdaşlıq barədə danışıqlar aparıb. Xüsusi olaraq İspaniya, Almaniya, İtaliya, Polşa, Türkiyə jurnalist təşkilatları ilə razılaşmalar əldə edib.

✍ **Lamiyə Hacıyeva**

# Yalançı-kamuflyajlı təbliğat həqiqətin əzəməti qarşısında acizdir



**Zahid Rza**

**Adını "azərbaycanlı" qoyan antimilli ünsürlərin ölkəmizin əleyhinə aparılan şər-böhtan, "qara piar" kampaniyasının hərəkətverici qüvvəsi və siyasi trolları rolunda çıxış etməsi xəyanətkarlığın və əxlaqsızlığın ən pik nöqtəsidir.**

Azərbaycana qarşı ardıcıl və məqsədyönlü şəkildə fəaliyyət göstərən dairələr, erməni lobbisi və onların nəzarətində olan təşkilatlar ("People in Need", eləcə də "Freedom House", "Amnesty International" və "Human Rights Watch") və media qurumları ölkəmizə qarşı yeni qarayaxma kampaniyasına start veriblər. Əslində bu, yeni bir şey deyil. Ölkəmizin güclənməsini istəməyən, onun inkişafına qısqanclıqla yanaşan, ən əsası isə Azərbaycanın xarici siyasət kursunu müstəqil şəkildə, öz milli maraqlarına uyğun müəyyənləşdirib həyata keçirməsini həzm edə bilməyən həmin dairələr respublikamızda keçirilən mühüm tədbirlər ərəfəsində daha da fəallaşaraq öz çirkin əməllərinin miqyasını durmadan genişləndirirlər. Əsassız, absurd iddialarla, şər-böhtan, uydurma yalanlarla, həqiqətlə daban-dabana zidd olan məlumatlarla "silahlanan" həmin nihilist, qaragüruhçular həm ölkəmizin nüfuzuna zərbə vurmaq, həm də həmin beynəlxalq tədbirlərin əhəmiyyətini azaltmaq, onun imicinə ləkə yaxmaq süni ajiotaj yaratmaq üçün min bir oyundan çıxırlar. Ancaq onlar anlamırlar ki, bütün bunların hamısı əbəsdir. Çünki Osmanlı türk qardaşlarımızın dedikləri kimi, onlar ateş olsalar, özləri boyda yeri yakarlar.

Bu öz yerində. Ancaq bu məsələnin elə tərəfi vardır ki, ona toxunmamaq, münasibət bildirməmək, müzakirə etməmək, kənardan durub bu işlərə tamaşa etmək mümkün deyil. Məsələ orasındadır ki, Azərbaycana qənim kəsilən həmin qüvvələr öz çirkin niyyətlərini gerçəkləşdirmək üçün "sapı özümüzdən olan baltalar"dan bir qul kimi çox məharətlə istifadə edirlər. Mayın 13-də Brüsseldə 4-5 nəfər antimilli ünsürün "aksiya" keçirmək cəhdi bunun əyani sübutudur.

İstər ölkə daxilindəki dağıdıcı müxalifət düşərgəsinin təmsilçilərinin, istərsə də Avropanın ayrı-ayrı ölkələrində sərsəri, iyrənc həyat tərzi keçirən, adını "azərbaycanlı" qoyan bəzi antimilli ünsürlərin ölkəmizin əleyhinə aparılan bu şər-böhtan, "qara piar" kampaniyasının hərəkətverici qüvvəsi və siyasi trolları (bəzi dairələr tərəfindən böyük pullarla maliyyələşdirilən, şərəf, ləyaqət, əxlaq, milli qürur tanımayan sosial media canlıları) rolunda çıxış etməsi həyasızlığın və əxlaqsızlığın ən pik nöqtəsidir. Yeri gəlmişkən, sosial medianı zəbt edərək, sosial internet əxlaqını pozan trollar əslində mifoloji varlıqlardır. Skandinaviya ölkələrinin folklorunda əsasən, div və ya cücə kimi şəkillənən, mağaralarda yaşayan çirkin varlıqlar olan trollar, həm də çağdaş uşaq hekayələrində əsasən körpülərin altında gözləyən, yolçuları müxtəlif işlərlə oyalayan və ya xərac kəsən xarakterlər olaraq göstərilirlər.

Mayası xəyanətkarlıqla yoğrulan, səbatsız, milli mənlik şüurundan, vətənpərvərlik hissindən, torpaq, el-oba təəssübündən məhrum bu marginalların üzdəniraq fəaliyyətlərində hərəkət trayektoriyasına, hədəflərinə diqqət edərkən açıq-aydın görünür ki, onlar bu anti-Azərbaycan təbliğatın yalnız vintcikləridir. Son vaxtlar sosial şəbəkələri, o cümlədən "You tube" və "Facebook"u izləyərkən bəlli olur ki, söyüş makinaları olan, Avropanın zibilliklərində eşələnən, özgələrin minnətli çörəyi ilə "zəhərlənən" Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir, Qənimət Zahid və digərləri Vətənimizə, dövlətimizə və onun simvollarına qarşı belə əxlaqsız, mənəviyyatsız hərəkətləri təpədən dırnağa qədər Azərbaycan əleyhdarları olan AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, ermənilərlə işbirliyində olması çoxdan təsdiq olunmuş Leyla Yunus kimilərin çirkin təlimatları ilə reallaşdırırlar.

Ölkədəki dağıdıcı müxalifət təmsilçiləri və xaricdə "siyasi mühacir" donuna bürünən antimilli ünsürlər, xəyanətkarlar "demokratiya, insan hüquqları, söz, vicdan azadlığı" və s. ilə bağlı həqiqətdən uzaq, qeyri-obyektiv, qərəzli məlumatları sosial şəbəkələrdə yaydıqdan sonra onları donos şəklində anti-Azərbaycan qüvvələrə ötürürlər. Təpədən dırnağa, sümüyünə, iliyinə qədər Azərbaycan əleyhdarları olan, öz yaşamlarını erməni lobbisinin çirkli pulları ilə təmin edən həmin təşkilatlar məlumatların, şər-böhtanların rəngini bir az da tündləşdirərək Qərbin müxtəlif dairələrinə sızdırırlar. Bu dairələr isə həmin donoslardan həm cəmiyyətdə narazılıq yaratmaq, həm də hökumətə təzyiq vasitəsi kimi istifadə edirlər. Bütün bunlar satqınlığın, xəyanətkarlığın, mənəviyyatsızlığın təcəssümü və pik nöqtəsidir.

Özünə hörmət etməyən, heç bir dəyər tanımayan, vicdan ölçüsü daşımayan, əxlaqı pozuq, mənliyini, milli qürurunu, şərəf və ləyaqətini şəxsi maraqlarına, üç-beş qəpiyə satan bu xəyanətkar merkantillərin dövlətimizin mənafeyinə, milli maraqlarımıza zidd, ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirən xəyanətkar əməlləri cəmiyyətimiz tərəfindən çox ciddi təxribat kimi dəyərləndirilərək birmənalı şəkildə rədd edilir.

# Azərbaycan Mətbuat Şurasının "Təzadlar" qəzeti ilə bağlı məlumatı

Azərbaycan
Mətbuat Şurası
MŞ
Azerbaijan
Press Council

Azərbaycan Mətbuat Şurasının (MŞ) "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının və MŞ-nin Apellyasiya komissiyasının 1 mart 2019-cu il tarixdə keçirilmiş birgə iclasının rəyinə əsasən "Təzadlar" qəzetinin adı Şuranın "qara siyahı"sına daxil edilib. Bunun səbəbi "Təzadlar" qəzetinin baş redaktoru Asif Mərziliyə izah olunub. Eyni zamanda, ona "qara siyahı"dan çıxmağın prosedurları barədə də məlumat verilib. Təəssüflər olsun ki, A.Mərzili "Təzadlar" qəzetinin "qara siyahı"ya daxil edilməsini şərtləndirən nöqsanları aradan qaldırmaq, fəaliyyətində dönüş etmək əvəzinə fərqli yol seçib. O, Azərbaycan Mətbuat Şurasına və MŞ-nin İdarə Heyətinin ayrı-ayrı üzvlərinə qarşı şər, böhtan atmaqla məşğuldur. Maraqlıdır ki, A.Mərzili MŞ İdarə Heyətinin bəzi üzvlərini sərt tənqidə məruz qoyduğu halda, qurumun digər üzvlərinə belə demək mümkünsə, "separat danışıqlar" təklif edir, bir növ ikitirəlik yaratmağa köklənir.

Peşəkarlar, o cümlədən diqqətli oxucular MŞ-nin fəaliyyəti, onun ictimai qınaq forması kimi seçdiyi "qara siyahı" barədə məlumatlıdırlar. Hər kəs bilir ki, Şura medianın özünütənzimləmə qurumu qismində jurnalistlərin "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na (AJPDQ) nə dərəcədə riayət etmələrinə nəzarəti həyata keçirir, peşə prinsiplərini pozan KİV-lərə yol verdikləri yanlışlıqları xatırladır, nöqsanların aradan qaldırılması üçün tövsiyələr ünvanlayır. Qurumun AJPDQ-nin prinsiplərini düşünülmüş şəkildə, hansısa maraqlar naminə pozmuş KİV-lərə qarşı ictimai qınaq tədbiri - "xəbərdarlıq", "ciddi xəbərdarlıq" və nəhayət, "qara siyahı"ya daxil etməkdir. "Təzadlar" ilə bağlı hər 3 prosedur tətbiq olunub: müxtəlif vaxtlarda yayımladığı və AJPDQ-nin prinsiplərinin kəskin şəkildə pozulduğu məqalələrinə görə nəşrə xəbərdarlıqlar edilib. Əlbəttə, nəticə çıxarmadığı üçün onun adı "qara siyahı"dadır.

Tövsiyələri, xəbərdarlıqları saya salmayan A.Mərzili yalnız adının "qara siyahı"ya düşməsindən sonra prosesi ciddiyə alıb. Lakin yenidən yanlış addımlar atmaqda davam edir. Hazırda "Təzadlar" qəzetinin səhifələrində AJPDQ-nin prinsiplərini ciddi şəkildə pozan, paralel olaraq, MŞ-nin rəylərini şübhə altına alan məqalələr yayımlanır, oxucuları çaşdırmağa cəhd göstərilir. Ancaq cənab Mərzili istəsəydi, durum bu qədər kəskin həddə çatmazdı.

MŞ monitorinq qrupu "Təzadlar" qəzeti və A.Mərzili barədə vətəndaşlardan, ayrı-ayrı idarələrdən daxil olmuş şikayətlər üzrə təqribən 30-a yaxın məqaləni təhlil edib. Bəlli olub ki, bu yazılarda ayrı-ayrılıqda ən yaxşı halda 30-a qədər səhv var və bu səhvlərin hər biri narazılıq üçün əsas verir. Yanlış, yalan yazmaq, marağı tələb edəndə məsələləri şişirdib əndazədən çıxarmaq, şər və böhtan atmaq, istənilən vasitə ilə şəxsi maraqlarını təmin etməyə çalışmaq Asif Mərzilinin ənənəvi iş üslubudir. Belə yanaşma AJPDQ-yə, ümumilikdə jurnalistika prinsiplərinə ziddir.

Cənab Mərzilinin bu yanaşma tərzi "Təzadlar"ı dəfələrlə çətin duruma salıb. Bəzən belə dəst-xətt ölkəmizin maraqlarına zidd olub. Diqqət yetirək, "Təzadlar" qəzeti 2009-cu ildə Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç barədə məqalə dərc etmişdi. Məqalə Mərzilinin həsəd və qısqanclıq hissləri zəminində yazılmışdı. Reallıq bu idi ki, keçmiş səfir həmin vaxtlarda redaksiyalara baş çəkir və kiçik xatirə hədiyyələri təqdim edirdi. "Təzadlar" isə bunu səfirliyin guya mətbuatı ələ alması kimi göstərmişdi. Halbuki səfir "Təzadlar"ın redaksiyasını ziyarət etsəydi, bu bəsit motivə əsaslanmış iddia ortaya çıxmazdı. Başqa cür düşünmək üçün əsas yoxdur. Buna və digər məsələlərə görə MŞ qəzetin adını "qara siyahı"ya daxil etmişdi. Lakin beş illik fasilədən sonra Mətbuat Şurası A.Mərzilinin xahişini nəzərə alaraq "Təzadlar"ın adını "qara siyahı"dan çıxartdı. Həmin andan baş redaktor yenidən öz neqativ əməllərinə qayıtdı.

A.Mərzili və rəhbərlik etdiyi "Təzadlar" qəzeti ilə əlaqədar şikayətlər o qədər çoxalıb ki, onları araşdırmaq, təhlil etmək, səhvləri qruplaşdırmaq xeyli vaxt aparır. Təsəvvür edin ki, MŞ-nin Şikayətlər üzrə Komissiyasının son bir il müddətində keçirdiyi bütün iclasların gündəliyində "Təzadlar" qəzetindən şikayətin müzakirəsi yer alıb. Komissiyanın 20 noyabr 2018-ci il tarixli iclasında (BDU-nun dosenti Rəşid Cabbarovun şikayəti üzrə) və 14 dekabr 2018-ci il tarixli iclasında (Ağdam Rayon İcra Hakimiyyətinin Bakı şəhəri üzrə daimi nümayəndəliyinin rəhbəri Elxan Mahmudovun və "Psixologiya" jurnalının təmsilçisi V.Abduləzimovun şikayəti üzrə, "Kür-Xəzər" Xeyriyyə Cəmiyyəti İctimai Birliyinin sədri Akif Kərimovun şikayəti üzrə) "Təzadlar" qəzeti və "təzadlar.az" saytı barədə şikayətlər araşdırılıb, şikayət doğuran materiallarda AJPDQ-nin balans prinsipinin pozulduğu müəyyən edilib. Bənzər xətaların təkrarlandığını nəzərə alaraq, "Təzadlar" qəzeti və "təzadlar.az" saytına MŞ tərəfindən xəbərdarlıq olunub. Tərəflər razılaşıblar ki, yazıda adı keçən və ittiham olunanların fikirlərinin açıqlanması üçün saytda şərait yaradılsın. Amma A.Mərzili özünün də iştirakı ilə keçirilmiş bu iclaslardan sonra razılaşmaları pozub, şikayətçilərə qəzetdə fikirlərini çatdırmaq imkanı verməkdən yayınıb.

Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının 15 yanvar 2019-cu il tarixdə keçirilmiş iclasında vətəndaş Quliyev Şakir Sabir oğlunun və Azərbaycan Dövlət İqtisad Universitetinin - UNEC-in professor/müəllimlərinin "Təzadlar.az" saytına qarşı şikayətləri araşdırılıb. Həmin müraciətlərdə iddia olunurdu ki, saytda Azərbaycan Dövlət İqtisad Universiteti-UNEC barədə qısa müddət ərzində 255-ə yaxın məqalə yayımlanıb. Məqalələr şər, böhtan xarakterlidir. Həmin 255 məqalədən yalnız 20-yə yaxını MŞ üzvlərinə təqdim edilmişdi.

Komissiya müəyyən edib ki, son vaxtlar "Təzadlar.az" saytı barədə MŞ-yə ünvanlanmış şikayətlər intensivləşib. Şikayət doğuran materiallarda AJPDQ-nin əksər prinsipləri pozulub. Komissiya üzvləri mübahisəli məqamların çoxluğunu, həm iddialarda, həm də verilən cavablarda boşluqların olduğunu, dəqiqləşdirmələrə ehtiyacın yarandığını nəzərə alaraq qərara gəliblər ki, qeyd edilən KİV-in fəaliyyətinin və şikayət doğuran materialların geniş araşdırılması üçün "Təzadlar" qəzeti və onun onlayn versiyası üzrə materiallar MŞ-nin monitorinq qrupuna yönləndirilsin. A.Mərziliyə də tövsiyə edilib ki, kampaniya xarakterli yazıları bir həftə müddətində dayandırsın, monitorinq qrupunun mövcud məqalələr üzərində araşdırma aparmasına şərait yaratsın. Baş redaktor bu şərtlə razılaşdığını bildirsə də, həmin günün ertəsi şərtləri pozub, Dövlət İqtisad Universitetinin rəhbərliyi ilə yanaşı, MŞ üzvlərini də tənqid hədəfinə çevirən yazılar yayımlamağa başlayıb. Şura üzvləri ilə "separat danışıq"ında isə etiraf edib ki, həmin məqalələrin sifarişçiləri onların yayımının bir həftəlik dayandırılması ilə razılaşmırlar və bu səbəbdən Şikayətlər üzrə Komissiyanın tövsiyələrini qəbul etməməyə məcburdur. Göründüyü kimi, "Təzadlar" qəzeti üçün "qara siyahı"dan başqa yol qalmır.

Azərbaycan Mətbuat
Şurasının katibliyi

*Gəncliyin tribunası*

# Gənclərə qayğı dövlət siyasətinin prioritetidir

**Bir millətin mövcudluğu və inkişafı sözsüz ki, onun sağlam gəncliyinin olmasını şərtləndirir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. 1997-ci ildə ümummilli lider Heydər Əliyevin "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncamı gənclərə göstərilən diqqət və qayğının ən böyük nümunəsi idi. Təqdirəlayiq haldır ki, Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Azərbaycanda Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başlanılmışdır. Dünyada isə yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si "Gənclər Günü" elan edilib.**



Gənclər Gününün 10 illiyi münasibətilə 2007-ci ilin ölkəmizdə "Gənclər ili" kimi qeyd edilməsini də olduqca əlamətdar hadisə kimi xarakterizə etmək lazımdır. Bundan başqa, dövlət başçısı İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" və "Azərbaycan Gəncliyi (2011-2015-ci illərdə) Dövlət Proqramı", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007- 2012-ci illər)", "2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı", "2007-2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı" və bir sıra digər mühüm sənədlərin qəbul olunması, uğurla həyata keçirilməsi ölkəmizdə gənclərin potensialının inkişaf etdirilməsinə, onların faydalı məşğulluğunun təmin edilməsinə öz töhfəsini verməkdədir. Qəbul olunan sənədlərin yaratdığı imkanlardan bütün gənclərimiz bəhrələnirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin gənclər siyasətinin ən ümdə hissəsini elm və təhsilin inkişafı təşkil edir. Ölkə başçısı 28 oktyabr 2014-cü il tarixində Bakıda Gənclər Siyasəti üzrə Birinci Qlobal Forumunun rəsmi açılış mərasimindəki nitqində demişdir: "Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir. Bütövlükdə bəşəriyyət innovasiyalardan, müasir texnologiyalardan faydalanır. Buna görə də təhsil Azərbaycanda prioritetlərdən biridir. Hesab edirik ki, beynəlxalq təhsil mərkəzləri ilə sıx əməkdaşlıq edərək biz daha böyük nailiyyətlər qazana bilərik. Bu səbəbdən uzun illər ərzində hökumətimiz gənc nəsillərimiz üçün dünyanın aparıcı universitetlərində təhsil proqramlarını maliyyələşdirir. Bu il təqribən 40 milyon avroya yaxın vəsait gənclərimizin xaricdə təhsili üçün sərf edilib. Eyni zamanda, biz Azərbaycanda təhsilin səviyyəsini artırmaq üçün bu sahəyə böyük sərmayələr yatırırıq və universitetlərimizlə dünyanın aparıcı təhsil ocaqları arasında beynəlxalq əlaqələri daha da artırmağa çalışırıq."

Gənc nəslin hərtərəfli inkişaf potensialının artırılması təkcə dövlət siyasətinin tərkib hissəsi olmayıb, eyni zamanda, müxtəlif şirkətlərə gənclər üçün əlverişli layihə və proqramların yaradılması üçün fürsətlərin yaradılması da dövlət qayğısının əyani göstəricisidir. Məhz bu şəraitdən faydalanaraq 2008-ci ildə mən də "Work and Travel" proqramında iştirak etmək imkanı əldə etdim. Tələbələrin 3 ay müddətində Birləşmiş Ştatları səyahət edib, dil öyrənib, iş təcrübəsi qazandığı bu proqram artıq yay tətilinin səmərəli təşkilinin ən yaxşı metoduna çevrilmişdir. Bu zaman çərçivəsində, həmçinin öz faydalı iş əmsalımı artıraraq Con Kennedi Dövlət Kitabxanasında tədqiqat aparmaq fürsəti əldə etdim.

Ölkə əhalisinin təqribən 30 faizini təşkil edən gənclərə qayğı dövlət siyasətinin prioritetidir. Gənclərə diqqət yalnız elm və təhsil sahələrində deyil, həmçinin sosial və idman sahələrində də davam etdirilməkdədir. "ASAN" adlanan yeni dövlət xidmətləri sisteminin tətbiqi ilə təqribən 30 növ xidmət göstərilir. "ASAN" sistemində çalışanların və könüllülərin tam əksəriyyəti gənclərdir. Prezident İlham Əliyevin gənclər siyasətində idmana qayğı da xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizin idman uğurlarının sayı illər keçdikcə artmaqda davam edir. 2012-ci il London Yay Olimpiya Oyunlarında Azərbaycan əvvəlki illərlə müqayisədə ən yüksək nəticəni əldə etdi. Azərbaycan demək olar ki, 200 ölkə arasında 30-cu oldu. Gənclər arasında Olimpiya Oyunları da Azərbaycan üçün əlamətdar oldu. Yığmamız təxminən 200 ölkə arasında 10-cu oldu. Bu onu göstərir ki, Olimpiya hərəkatının inkişafı, müasir idman qurğularının yaradılması siyasəti öz nəticəsini verir. 12-28 iyun 2015-ci il tarixlərində Bakıda keçirilən ilk Avropa Oyunları da əlamətdar hadisə olaraq yadda qaldı. Panamerika, Asiya, Afrika Oyunlarından fərqli olaraq Avropa Oyunları əvvəllər heç zaman keçirilməmişdir. Yarışlarda Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə aparırdı.

2016-cı il sentyabrın 1-dən 14-dək paytaxt Bakıda keçirilən 2-ci Şahmat Olimpiadası və 12-22 may 2017-ci il tarixlərindəki IV İslam Həmrəyliyi Oyunları da idman sahəsindəki növbəti uğurlarımız idi.

Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətəlayiqdir. Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamı da gənclərə dövlət qayğısının davamı idi. Bütün bunlar deməyə əsas verir ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına da olduqca müsbət təsir göstərəcək.

2019-cu il fevralın 14-də Prezident İlham Əliyevin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Sərəncamına əsasən martın 1-dən elmlər doktoru hazırlığı üzrə doktorantlara - 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 180 manat təqaüdün verilməsi də biz gənc alimlər üçün də yüksək səviyyədə stimul oldu. Gənclər siyasətində qarşıya qoyulan vəzifələrdən biri də yeni nəslin nümayəndələrinə etimad göstərilməsi, məsul vəzifələrə, idarəetmə işinə irəli çəkilməsi, qabiliyyət və bacarıqlarını nümayiş etdirmək üçün şərait yaradılması, bir sözlə, onların dövlət quruculuğunda və ümumiyyətlə, ictimai-siyasi proseslərdə fəal iştirakını təmin etməkdir. Məhz bunun məntiqi nəticəsi kimi 2 oktyabr 2019-cu il tarixindən Bakı Dövlət Universitetinin Beynəlxalq proqramlar şöbəsində mütəxəssis vəzifəsində çalışıram. Gənc bir alim kimi Prezident İlham Əliyevin gənclər siyasətinin uğurlarını hər zaman üzərimdə hiss edirəm.

✍ **Hüseyn Hüseynli,**
YAP Zahid Xəlilov 23 (BDU)
ərazi partiya təşkilatının üzvü,
BDU-nun müəllimi

# PAŞİNYANIN FOTOKAZUSLARI: beynəlxalq siyasətin təsadüfi və müvəqqəti "gözəgörünməzi"



**Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun adından Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyi zamanı protokol qaydalarına uyğun olaraq çəkilən rəsmi kollektiv fotoda Ermənistanın baş naziri Nikol Paşinyan növbəti kazusla üzləşib.**

Belə ki, Şərq Tərəfdaşlığının "Facebook"dakı səhifəsində yayımlanan fotoda arxada ayaq üstə dayanmış Nikol Paşinyan Ukrayna Prezidenti Pyotr Poroşenkonun ardında "görünməz" olub...

Təbii ki, ermənilər də bunun fərqinə varan kimi özlərinə məxsus aqressiya və həyasızlıqla Şərq Tərəfdaşlığının səhifəsinə hücuma keçiblər. Çoxsaylı şərhlər yazaraq fotonun səhifədə dəyişdirilməsini tələb ediblər. Sanki tələblə görünməyəni görünən etmək olurmuş kimi...

Vaxtaşırı fotolardakı "yersizliyi" ilə gündəmə gələn Paşinyan keçən ilin dekabrında da bənzər situasiya ilə üzləşmişdi. Belə ki, 2018-ci ilin sonlarında Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü zamanı çəkilən fotoda da Paşinyanın "yeri yox idi"... Həmin vaxt qeyri-rəsmi zirvə görüşü çərçivəsində dövlət başçıları Sankt-Peterburq Dövlət Akademik Marinski Teatrında Pyotr Çaykovskinin "Şelkunçik" baletinə tamaşa edərkən Rusiya Prezidenti Vladimir Putinin sağında Azərbaycan dövlətinin başçısı İlham Əliyevin, solunda isə Belarus lideri Aleksandr Lukaşenkonun əyləşməsi ilə yaddaqalan fotoda Paşinyanın az qala liderlərin çərgəsini tərk edib mühafizəçilərlə birlikdə oturması da həmin vaxt işğalçı ölkənin gündəmində şok effekti yaratmışdı.

Baş verənlərə bir az kənar aspektdən nəzər saldıqda Nikol Paşinyanın kazuslarının təsadüfi olmadığını, əslində elə tarixi zərurətin təzahürü kimi ortaya çıxdığını anlaya bilərik. Bu kazuslar Ermənistanın əvvəlki rəhbərlərindən də daha radikal və aqressiv olması ilə seçilən, psevdodemokratiya görüntüsü ilə əslində daxilən daha çox despot ruhlu Nikol Paşinyanın fotolardakı "gözəgörünməzliyi" əslində onun beynəlxalq siyasətdə sadəcə görünməyən bir piyada olmasından, hökumət rəhbəri qismində heç bir əhəmiyyət kəsb etməməsindən xəbər verir.

Nikol Paşinyanın psixoloji portreti və fotolardakı passiv-aqressiv tərəfini sərgiləyən bədən dili də, özünə inamsızlığını göstərən jest və mimikaları da təcavüzkar ölkənin baş nazirinin əslində daxilən suçluluq kompleksi daşıdığını, cəmiyyətə şüurunun dərin qatlarında özünü hazırkı posta qətiyyən layiq görmədiyini ələ verən iradəsindən kənar mesajlar ötürür.

Bu fotokazuslar "təsadüflərin əsərləri" deyil. Nikol Paşinyan daxilən mühüm vəzifə tutmağa layiq olmadığını, hazırkı məqama tarixi şəraitin dolanbacları vasitəsilə təsadüfən düşdüyünü, öz səriştəsizliyini, naşılığını və qeyri-peşəkarlığını lap yaxşı bilir. Bu özünəgüvənsizliyi, inamsızlığı və səriştəsizliyi isə şüuraltının diktəsi ilə özünü müxtəlif beynəlxalq tədbirlərdə çəkilən fotolarda büruzə verir.

Nikol Paşinyan özlüyündə lider olmadığını lap yaxşı bilir. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərin birində çəkilən fotoda da dövlətimizin başçısının şax və özgüvənli görüntüsü fonunda Ermənistan baş nazirinin büzüşüb və boynunu əyib oturması Paşinyanın təkcə Dağlıq Qarabağ problemi ilə bağlı haqsız və işğalçı mövqe tutduğunu bilməsi ilə yekunlaşmır. İnsan psixologiyasına və bədən dilinin incəliklərinə azacıq bələd olanlar həmin fotoda həm də özünə, siyasi səriştəsinə, elmi potensialına və diplomatik bacarığına son dərəcə əmin olan və bütün bunları vücudu və qaməti vasitəsilə bəlli etməyi bacaran Azərbaycan Prezidentinin yanında Nikol Paşinyanın büzüşük görüntüsü, əslində onun necə bir natamamlıq kompleksindən və özünün hərtərəfli yarımçıqlığından daxili əzab çəkdiyini asanlıqla sezə bilərlər.

"Şelkunçik" baleti zamanı mühafizəçilərin yanında yer alması da birbaşa küçədən kresloya dırmaşan, siyasətdən uzaq kəsin "qəhrəmanlıq" hekayəsinin fotoqrafik məzmunudur. Kimsə deyə bilər ki, bu hərəkət Rusiya Prezidenti Putinin Ermənistan baş nazirinə olan antipatiyasının göstəricisi idi. Bu, işin sadəcə bir tərəfidir. Əsas məqam odur ki, Nikol Paşinyan şüuraltında məhz liderlərin yanında deyil, özünü orada görə bilmir. Ona görə də onun mühafizəçilərlə bərabər əyləşməsi qətiyyən təsadüf, yaxud ona qarşı düşünülmüş təxribat deyil. Bu, Paşinyanın daxilən "nə qədər" və "nə boyda" olduğunun istəmədən də olsa, cəmiyyətə etirafıdır...

Qayıdaq, əvvəldə söhbət açdığımız Şərq Tərəfdaşlığının sosial şəbəkədəki səhifəsində yer alan fotoya. Bu, şüvən salmağı özlərinin peşəsinə çevirmiş ermənilərin iddia etdikəri kimi hansısa təxribat, yaxud kazus deyil. Paşinyanın növbəti dəfə yenə özündən həm fiziki, həm də mənəvi, həm də siyasi cəhətdən böyük olan liderlərin arxasında gizlənib "görünməz olması" da onun daha bir şüuraltı özünüifadəsi idi. Elə həmin fotoda inamla dünya liderləri ilə bir sırada layiqli yerini alan Azərbaycan Prezidenti İlham Əliyevlə müqayisədə Nikol Paşinyanın daxilən suçlu və natamam olduğunun göstəricisi kimi az qala arxada büzüşüb gözdən itməyə çalışması əslində özünün nə başəri dəyərlər, nə də insani keyfiyyətlər baxımından qətiyyən həmin liderlərin sırasında yer almağa layiq olmadığını, həmin yerlərdə təsadüfi və müvəqqəti olduğunu bilməsinin fotosudur. Təsadüfi və müvəqqəti... Eynilə Azərbaycanın Şuşasında yallı getdiyi zaman çəkilən fotosunda olduğu kimi!

✍ **Sevinc Abdullayeva, *"İki sahil"***

---

# Atəşkəs niyə davamlı sülhə çevrilmir?



**Sevinc Azadi**

## Paşinyanın gedişləri Dağlıq Qarabağ məsələsində ölkəni daha dərin uçuruma sala, ən əsası isə, təhlükəli savaşa sürükləyə bilər

Ermənistan siyasi və ekspert dairələrində yayılan informasiyalar bu ölkənin mövqeyi haqqında müəyyən fikir yürütməyə imkan yaradır. Təhlillər göstərir ki, Ermənistan rəhbərliyi hələ də qlobal və regional miqyasda baş verən prosesləri qeyri-adekvat dərk edir. Onlar reallığa əsaslanmayan mövqe tutmaqda davam edirlər. Bu bir tərəfdən regionda riskləri artırırsa, digər tərəfdən Ermənistanın özünü daha pis vəziyyətə salır. Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan özünün yeni məsuliyyətsiz yanaşması ilə növbəti dəfə danışıqlar prosesini pozmaq niyyətini nümayiş etdirib. Belə ki, Paşinyanın Qarabağ separatçılarının danışıqlar prosesinə cəlb edilməsi ilə bağlı təşəbbüsünün rədd edilməsi barədə ATƏT-in Minsk qrupunun son bəyanatlarına, həmçinin danışıqların formatının dəyişdirilməsinə qarşı çıxmış Azərbaycan Prezidenti İlham Əliyevin qəti mövqeyinə baxmayaraq, Ermənistanın baş naziri yenə əks mövqedən çıxış edib. O, separatçıların da danışıqlar prosesində tərəf kimi çıxış etməsinin vacibliyini önə çəkib. Halbuki bundan əvvəl qeyd olunan xüsusda edilən cəhdlərə görə təkcə Bakı yox, bütün dünya, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Paşinyanı kəskin şəkildə qınayıb və danışıqlar formatının dəyişməz olduğunu onun diqqətinə çatdırıblar. Amma Paşinyanın yenidən analoji mövqe sərgiləməsi artıq Qarabağ savaşını qaçılmaz edir.

Ermənistan hökumət başçısının cavabını verən Azərbaycan tərəfi də məsələnin bu məqamını qabardır. Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edir ki, 25 il ərzində atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir: "Atəşkəs sülh deyil. Ermənistan rəhbərliyi tərəfindən də etiraf olunur ki, 25 il keçməsinə baxmayaraq, atəşkəs davamlı sülhə çevrilməyib. Bu müddət ərzində atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir".

Nikol Paşinyanın hakimiyyətə gəlməsinin Ermənistanda siyasi böhranı daha da dərinləşdirdiyini artıq ekspertlər açıq etiraf edir. Bura xüsusən də Dağlıq Qarabağ münaqişəsi şamil edilir. Ermənistanda hesab olunur ki, Paşinyanın gedişləri Dağlıq Qarabağ məsələsində ölkəni daha dərin uçuruma sala, ən əsası isə, təhlükəli savaşa sürükləyə bilər. "Qraparak" nəşri bu xüsusda yazır: "Ölkə təhlükə qarşısındadır və bunun qarşısını almaq üçün müraciət ediləcək bilər rəhbər yoxdur. Bomba üzərində olan vəziyyətə düşmüşük və saat işləyir. Bu partlayacaq. Lakin neçə saniyə, neçə dəqiqə sonra...".

Ermənistanda "Sülh dialoqu" təşkilatının eksperti Ruben Martirosyan da bildirir ki, bu durumda Azərbaycanla danışıqlara getmək və razılıqlar əldə etmək daha məqbul olardı: "Daha Azərbaycanı qıcıqlandıran mövqe sərgiləmək lazım deyil. Gəlin, reallığı unutmayaq. Ötən dövr ərzində Azərbaycan xeyli güclənib və bura onun ordusu da aiddir. Bizdə ordu nə ilə gündəmə gəlir? Daha çox itkilərlə, intiharlarla. Ermənistanda cinayətkar müstəntiqlər, hakimlər və prokurorlar hələ də hərtərəfli istintaq araşdırması aparmaq istəmirlər."

Ümumiyyətlə, Ermənistanda münaqişənin həllinə yanaşmada fərqlər getdikcə özünü daha çox göstərir. Bir qrup Azərbaycanla dil tapmağın zəruriliyini anlayır. Digərləri isə qətiyyətlə buna qarşı çıxır. Hələlik barışmaz mövqedə olanlar çoxluq təşkil edir. Göründüyü kimi, Ermənistanın probleminin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Bunu nə ilə izah edirsən et, heç nə dəyişmir. İstər mücərrəd surətdə erməni xalqının iradəsindən bəhs et, istərsə də Paşinyan hakimiyyətinin siyasi iradəsindən və ya başqa tarixi "faktlar" gətir, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan çıxmalıdır!

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**elektrik mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11038AM-19) üzrə zərflərin açılış tarixlərini uzadaraq yenidən elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 27.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 04.06.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 236 AZN (ƏDV daxil) LOT 2 üzrə 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin təchizat 90 gün ərzində icra olunması tələb olunur

***V. Müsabiqə təklifinin təminatı:***
* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. (hər LOT üçün ayrı zərfdə təqdim edilməlidir)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:**
Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vuqar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 04.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**translyasiya gücləndiricisinə olan tələbatı təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11089AM-19) üzrə zərflərin açılış tarixlərini uzadaraq yenidən elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 06.06.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin təchizat 60 gün ərzində icra olunması tələb olunur

***V. Müsabiqə təklifinin təminatı:***
* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. (tələb olunmur)
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:**
Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vuqar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 06.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

Gəncliyimiz gələcəyimizdir

# Dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır

## "İki sahil"in "Parlaq gələcək təminatçıları" layihəsinin növbəti iştirakçısı Azərbaycan Dillər Universitetinin tələbəsi Şahin Sərdarlıdır

***-Özün haqqında bizə məlumat ver, Şahin Sərdarlı kimdir?***

- Keçmişimiz silinməz bir tarixdir. Uzun sözün qısası, 23 yaşım var. Şamaxının Meysəri kəndində doğulmuşam. Şəhid əmimin adını daşıyan Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbində oxumuşam. Kənddə doğulmaq, orada böyümək tamam başqadır. Təbiiliyi, çox yaxşı mühiti olsa da, min cür əziyyəti var. Əmək fəaliyyətimə 9 yaşımdan başlamışam. Yay aylarında tikinti sahəsində, şadlıq saraylarında, restoranlarda işləyir, yeni dərs ili üçün özümə dərs ləvazimatları alardım. Özümdə həmişə bir inam olub ki, əziyyət çəkəcəyəm, mən bacaracağam. 16 yaşımda "ASA" adlı jurnalistika məktəbini oxumuşam, həmin dövrdən fotoqrafiya və jurnalistika sahəsində çalışmışam. Azərbaycan Fotoqraflar Birliyinin üzvü olmuşam. 17 yaşımda "ATV xəbər"də titr operatoru, daha sonra isə "ATV.az" saytında fotomüxbir kimi işləmişəm. 374 balla Bakı Slavyan Universitetinin (BSU) Beynəlxalq münasibətlər ixtisasına qəbul olundum. BSU-da həm təhsil alırdım, həm də mətbuat xidmətində çalışırdım. Birinci kursu bitirəndən sonra "transfer.edu.az" saytı vasitəsilə Azərbaycan Dillər Universitetinə (ADU) köçürüldüm. Elə həmin dövrdən ADU-nun Mətbuat xidmətində mütəxəssis, redaktor vəzifələrində çalışmışam. Hazırda isə ADU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədriyəm. Mir Cəlal adına hekayə müsabiqəsində iştirak etdim. Həmin müsabiqənin mükafatlandırma mərasimində isə çox hörmətli Arif Paşayev, Hafiz Paşayev tərəfindən mükafatlandırılmaq dəyərli və həyatım boyu unutmayacağım bir anlar idi. Bakı Slavyan Universitetindən Azərbaycan Dillər Universitetinə tələbə transferləri vasitəsilə (transfer.edu.az) köçürüldükdən sonra universitetin "Bir günlük xəlifə" layihəsinin seçimlərində iştirak etmiş və tələbələr tərəfindən "mətbuat katibi" vəzifəsinə seçilmişəm. Bir gün müddətində bu vəzifəni icra etmişəm. Ötən il Gənclər Günü münasibətilə keçirilən tədbirdə Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla tərəfindən "İlin ən uğurlu transferi" mükafatına layiq görülmüşəm. Ən böyük uğurum isə Bakı Slavyan Universitetində oxuyarkən Yeni Azərbaycan Partiyasının üzvləri sırasına qoşulmaq haqqında aldığım qərar oldu.

***-Nəyə görə ixtisas seçimin məhz jurnalistika oldu?***

- İnformasiyanın içində olmağı çox sevirəm. Hər şeydən məlumatlı olursan. Jurnalistikada sən informasiyanı axtarmırsan, informasiya səni tapır. Bir də qələmin iti olduğu üçün dostların da çox olur.

***- Yeni Azərbaycan Partiyasının bugünkü fəaliyyəti haqqında fikirlərin necədir?***

-Yeni Azərbaycan Partiyası bu gün ölkəmizin ən ümdə partiyasıdır. Öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib. Yeni Azərbaycan Partiyası siyasi sistemin monolit gücü və avanqard siyasi institutudur. YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır. YAP, eyni zamanda, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına, təkmilləşməsinə birbaşa, fundamental töhfələr verən ümumxalq partiyasıdır. Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər də böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərin inkişafına geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. YAP Gənclər Birliyində parlaq zəkalı, ağıllı, iradəli, Vətənə sevgisi ilə seçilən gənclərimiz çoxdur. Bu gənclər ölkəmizin sabahıdır. Sabahımıza isə inamım böyükdür.

***-Şahin üçün Vətən sevgisi nə deməkdir?***

-Vətən hər birimizin özümüzdən, ətrafımızdan, dostlarımızdan başlayır. Vətən mənim üçün şəhid olmuş əmimdir. I kursda oxuyurmuş, könüllü olaraq müharibəyə yollanıb. Şəhid olub, məzarı belə yoxdur. Elə bilirəm ki, ölkəmin hər qarış torpağına onun ucaboy qaməti qarışıb, nəfəsi təbiətə can verir. Vətən başqadır, mən indi deyə bilmərəm ki, vətən üçün filan şeyi edəcəyəm. Bilirəm ki, zamanla deyəcəyim şeylər edəcəyim işlərin yanında çox kiçik görsənəcək. Hərdən düşünürəm ki, hər rayondan bir qarış torpaq gətirəm, əmimin ruhu üçün bir məzar düzəldəm. Saatlarla orada oturam, onunla dərdləşəm. Fikrimcə, Vətənim, yurdum, şəhidlərim üçün canımdan da keçsəm azdır. Torpaqlarımızı geri almayana qədər özümü şəhidlərim və Vətənim qarşısında borclu və günahkar hiss edirəm.

***- Bildiyimə görə, Milli Qəhrəmanımız Mübariz İbrahimovun doğum günü ilə bağlı yazı müsabiqəsi də keçirmisən...***

- O qədər gözəl yazılar gəlmişdi ki. I sinif şagirdləri belə nələrsə yazmağa çalışmışdı. Yüzlərlə yazı göndərildi. 3 mərhələli seçim turu etdik. Layiq olanlar



yer qazandılar. Əslində bu müsabiqəni öz əməkhaqqım hesabına başlatsam da, sonradan Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti də maddi dəstək verdi. Hətta rektorumuz Kamal Abdulla da şəxsi təşəbbüsü ilə layihəmizə dəstək verdi, müsabiqənin maliyyəsi daha da artdı. Qəhrəmanlarımızın təbliği, onların uca tutulması hər bir gəncin ən ümdə vəzifəsidir.

***-Asudə vaxtlarını necə dəyərləndirirsən?***

- İnsanlar necə rahat ola bilirsə, o cür də həyat planlamasını qururlar. Məsələn, mən asudə vaxtımda şeir, ya da hekayə yazıram. Nərdi oynamağı çox xoşlayıram, tək gəzməyi, mütaliə etməyi sevirəm. Amma həftədə cəmi 3-4 saat asudə vaxtım olur. Gücümü işləməyə ayırıram. Gəncəm, enerjiliyəm, daha çox işləyə bilərəm deyə düşünürəm.

***-Yazdığın şeir və hekayələr hansı mövzuda olur? Yadında qalan bəndlərdən biri...***

- Əsasən Vətən sevgisindən, peyzajdan, humanizm haqqında mövzular olur. Şeirlərimdən bu bənd yadıma düşdü:

*Sərçələr düzülüb ayaqlarıma!*
*Bir sıxma, bir ovuc dəndən ötəri.*
*Ağzı da sulanır gözləri kimi,*
*Həsrətin çəkdiyi dəndən ötəri.*
*Gözü dən axtarır, dili dən deyir,*
*Yavru sərçələrin dəncəyi boşdur.*
*Titrək "əlləriylə" dilənir indi,*
*Məndən istədiyi dən məndə yoxdur.*

***-Gələcəkdə özünü harada görürsən?***

-Heydər Əliyev Fondunda çalışmaq istəyirəm. Bunun ən başlıca səbəbi isə odur ki, mən insanlarla işləməkdən, onlara kömək əli uzatmaqdan xüsusi zövq alıram. Yaşamaq həvəsim artır. Heydər Əliyev Fondu isə çətin durumda olan insanlar üçün dayaqdır, mərhəmətin oazisidir. Mərhəmətin oazisində olmaqdan başqa nə arzumuz ola bilər ki? İnsanlar üçün çətin görünən hər hansı bir məsələni həll edib, onlardakı sevinci gördükdən sonra gecələr yaxşı yata bilirəm. Yaşlı bir insanın əlindən tutub pilləkənləri düşürməkdən, yolu keçirməkdən belə enerji alıram.

***-Azərbaycan dövlətinin gənclərimiz üçün daha hansı imkanlar yaratmasını istərdin?***

- Dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə imzaladığı yüzlərlə Sərəncamı ilə təsdiq etdi ki, gənclərə dövlət qayğısı gündən-günə artırılır. Həmin sərəncamlarda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyir. Yəni hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir. Düşünürəm ki, dövlət hər gün gənclərə yeni imkanlar yaratmaq üçün müxtəlif proqramlar üzərində çalışır, bu iş öz axarında layiqincə yerinə yetirilir.

***-Sənin fikrincə, parlaq gələcək təminatçılarımız necə olmalıdırlar?***

- Daha şən, gülərüz, səmimi, mehriban, ağıllı, bacarıqlı gözüaçıq, müasir, ölkəmizin mənafeyini qorumaq üçün gecə-gündüz çalışan, fəal sosial şəbəkə istifadəçisi və ən əsası multikultural ruhda böyüyən bir vətənpərvər şəxsiyyət. Çox intellektual gənclərimiz var. Onlar müasir dövrlə ayaqlaşa bilirlər. Amma aramızda tənbəlləri də var. Təhsildən, ictimai fəaliyyətdən, könüllülük hərəkatından uzaq qaçmağa çalışırlar. Amma zaman itkisi və kənarda qalmaq onların əleyhinə işləyir. Dostlarımız sosial şəbəkələrdən doğru istifadə etməyi bacararsa, əlbəttə, bu sahəyə meyil etməsini normal və vacib hesab etmək olar. Sosial şəbəkə elə bir virtual məkandır ki, oradan ölkəmizin mənafeyi üçün çox mötəbər işlər görmək olar.

***-Müasir gənclərin kitab oxumağa maraqlı olmamasının səbəbləri nədir?***

- Mütaliə cəmiyyətimizin intellektual səviyyəsinin inkişafına xidmət edir. Mütaliə düşüncələrin rəqsidir. İki fərqli mədəniyyətə məxsis fikrin bir-biri ilə rəqsi nə dərəcədə önəm kəsb edə bilərsə, o qədər də önəmlidir. Kitab oxucularının azalması və artımı hər dövrdə də olub. Dağda çobanlıq edib bütün günü kitab oxuyan şəxs də tanıyıram, dünya ədəbiyyatını başdan-başa oxuyan xadimə də tanıyıram, professor da. Gənclər mütaliəyə bir az etinasız yanaşırlar. Bu da təbiidir. Sosial şəbəkə, mobil telefon onların zamanını oğurlayır. Bu azalma tempi buna görədir. Amma bir neçə ilə bu temp yüksələn xətlə inkişaf edəcək. Heydər Əliyev Fondunun təşəbbüsü ilə fəaliyyətə başlayan Bakı Kitab Mərkəzində bir neçə saat olmaq kifayətdir ki, orada kitaba bəşəri məhəbbəti duya biləsən.

***-Gənclərimizə məsləhətin nə olardı?***

- Ən birinci xahişim yaxşı təcrübə toplasınlar. İşlədikləri, istədikləri sahəni dərindən öyrənsinlər. İndi təcrübə daha ümdə yerdədir. Dil bilikləri də çox önəmlidir. Çalışıram ki, mən də dil biliyimi inkişaf etdirim.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

## BAKI ALİ NEFT MƏKTƏBİNİN TƏLƏBƏLƏRİ "STAR" VƏ "PETKİM"DƏ İŞLƏYƏCƏK

SOCAR TÜRKİYƏ
BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

Bakı Ali Neft Məktəbinin (BANM) 6 tələbəsi "SOCAR Türkiyə"də işləyəcək. BANM-in rektoru Elmar Qasımov bildirib ki, "Star" və "Petkim"də hələlik 6 yer nəzərdə tutulub. "SOCAR Türkiyə"nin apardığı seçim prosesi nəticəsində ali məktəbin Kimya mühəndisliyi və Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisaslarında təhsil alan altı tələbə seçilib, onlar "Star" neft emalı zavodunda və "Petkim" neft-kimya kompleksində işləyəcəklər.

Rektor bildirib ki, ali məktəbin əsas strategiyası şirkətlərə istehsalat təcrübəsi, praktik vərdişləri olan kadrlar yetişdirməkdir. Həmçinin o bildirib ki, tələbələrin məzun olmamış iş təklifi alması ali məktəbin "Biz iş axtarmırıq, iş bizi axtarır" şüarını təsdiq edir. Onun sözlərinə görə, indiyə kimi BANM-in 30-a yaxın məzunu "Star" və "Petkim" zavodlarında çalışır.

"Star" və "Petkim" SOCAR-ın Türkiyədə fəaliyyət göstərən və böyük investisiya edilmiş neft-kimya zavodlarıdır.

# Jurnalist heç bir halda təhqirə və hədə-qorxuya məruz qalmamalıdır



Söz və ifadə azadlığının təmin olunduğu, informasiya əldə edilməsi sahəsində təkmil qanunvericilik bazasının yarandığı Azərbaycanda bu ali dəyərlərə uyğun məsuliyyət kateqoriyaları və mexanizmləri müəyyənləşib. Mövcud durumda hər kəsin, xüsusən məmurların, tutduğu mövqe və status ictimai əhəmiyyət daşıyan, cəmiyyətin diqqət mərkəzində olan vəzifəli şəxslərin üzərinə düşən konkret öhdəliklər var. Dövlətə, Vətənə sədaqət, dürüstlük və vicdanlılıq meyarları həmin öhdəliklərə yanaşma tərzinə əsasən ölçülür.

Cəmiyyətin informasiya ilə təminatında iki qütb iştirak edir ki, bunlardan biri jurnalistlərdirsə, digəri informasiya daşıyıcıları olan hüquqi və fiziki şəxslərdir. Bu iki qütbün bir-birilə münasibətlərinin düzgün qurulması, qarşılıqlı əməkdaşlığa əsaslanması yalnız etik dəyərlər baxımından prioritet göstərici deyil, eyni zamanda qanunlarımızın tələbidir. Buna görə onların hər ikisinin fəaliyyətlərinə həssas yanaşmaları, daşıdıqları missiyanın məsuliyyətini dərindən dərk etmələri mütləq şərtdir. Təəssüf ki, cəmiyyətimizdə bunu nəzərə almayanlar da var. "Azerbaijan Favorite News" (www.afn.az) saytının əməkdaşı Həbibə Abdulla ilə bağlı yaşanmış olay bunu deməyə əsas verir.

H.Abdulla Azərbaycan Mətbuat Şurasına ünvanladığı açıq məktubunda Gəncə Dövlət Universitetinin Etika komissiyasının və Tədrisə nəzarət komissiyasının sədri Əliqulu Quliyev, həmçinin Bakı şəhərindəki 175 saylı orta məktəbin direktoru Tural Mirzəliyev tərəfindən təhqir olunduğunu, hədə-qorxulara məruz qaldığını bildirib. Onun məsələ ilə bağlı izahatlarından gələnən qənaət bundan ibarətdir ki, jurnalist peşə öhdəliklərinə uyğun işin icrasına məsuliyyətlə yanaşdığı halda, nalayiq münasibətlə üzləşib.

Mətbuat Şurası jurnalistlərin səlahiyyətlərindən irəli gələn fəaliyyəti yerinə yetirmələri zamanı hər hansı xoşagəlməz rəftarla, qanunsuzluqla üzləşməmələri faktlarını qətiyyətlə pisləyir. Şuranın H.Abdulla ilə bağlı duruma yanaşması da eyni mövqedən qaynaqlanır. Heç bir halda cəmiyyətdə elə təəssürat yaranmamalıdır ki, hansısa media orqanının əməkdaşı peşə vəzifəsini icra edərkən təhqirə və hədə-qorxuya məruz qala bilər. Buna dair şübhənin olması belə demokratik cəmiyyət quruculuğu prinsiplərinə zidd təmayüldür. Tutduğu statusdan asılı olmayaraq, hər bir vəzifə sahibinin məsələni məhz bu kontekstdə dəyərləndirməsi mütləqdir.

Azərbaycan Mətbuat Şurası müvafiq dövlət qurumlarını jurnalist Həbibə Abdulla ilə bağlı məsələni diqqətdə saxlamağa, insidenti dərindən araşdırmağa çağırır. Şura əmindir ki, günahkarların qanunlarımız çərçivəsində məsuliyyət daşımalarının təmin olunmasına həssas yanaşılacaq, bu istiqamətdə zəruri ölçü götürüləcəkdir.

# Şahinin Vətən sevgisi



Şahin Xanhüseyn oğlu Sadıxov 1974-cü ildə dağlar diyarı Lerik rayonunun Əvilə kəndində dünyaya göz açmışdır.

Orta məktəbi bitirdikdən sonra Bakı Rabitə Texnikumuna daxil olur.

Şahin ermәni dığalarının Qarabağda başladıqları qanlı-qadalı müharibə günlərində Bakıda qalmağı heç cür özünə sığışdıra bilmir. Qəlbində yuva salmış Vətən məhəbbəti ilə silaha sarılıb birbaşa ön cəbhəyə gedir. Torpaqlarımızı ermәni işğalından azad etməkdən ötrü mübarizə meydanında hünər göstərir.

Həm də Şahinin güllə yağışı altından yaralı silahdaşlarını od- alovun içindən çıxarır. Şahinin komandirləri tərəfindən aldığı fəxri fərmanlar onun necə vətən yolunda hər an ölümə getməyini göstərir.

1994-cü ilin may ayında Tərtər rayonu uğrunda ağır döyüşlər başlanır. Düşmənə qarşı öndə vuruşan Şahin Vətənin azadlığı naminə sinəsini güllə qabağına verir. 20 yaşında şəhidlik zirvəsinə ucalır. Vətən sevgisi ona milyonların qəlbində əbədiyaşarlıq qazandırır.

Şahinin Vətən qarşısında xidmətləri unudulmayıb. Keçdiyi şərəfli həyat yolu doğma yurda, torpağa, insanlara bir örnəkdir.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# "Aker BP"nin uğursuz nəticəsi



Norveçin "Aker BP" neft kəşfiyyatı və istismarı şirkətinin Şimal dənizinin ofşor hissəsində yerləşən quyuda apardığı hasilat işləri uğursuz nəticələnib. Belə ki, quyuda karbohidrogen ehtiyatı aşkar olunmayıb.

Norveçin Neft Direktorantlığından verilən məlumata görə, aparıcı şirkət artıq "Deepsea Stavanger" qazma qurğusu vasitəsilə qazılan sözügedən 25/11-29 S quyusunda apardığı əməliyyatları tamamlayıb.

"İki sahil" "oedigital.com" saytına istinadən xəbər verir ki, quyu "Qreyn" yatağının cənubunun 14 kilometrliyində yerləşən "Utsira" yatağında qazılıb. "225/11-29 S" quyusu "Statfjord"dakı erkən Yura yaşlı süxur olunmuş neft ehtiyatı ilə zəngin qayalıqlarla əhatələnən rezervuarı hədəfə alsa da quyu boş çıxıb. "225/11-29 S" quyusundan nümunələr götürülüb və quyu tərk olunub.

Qeyd edək ki, bu, 916 saylı hasilat blokundakı ilk kəşfiyyat quyusu idi.

# "İyirmi il rəhbər vəzifədə mürgüləyənlər, yarım milyona akt zalı təmir edənlər..."

## ADPU-dan yazanlara bir cavab...




**Son dövrlər bəzi kütləvi informasiya vasitələrində ADPU-ya qarşı aparılan qərəzli, məqsədli, bir mənbədən idarə edilən çirkin kampaniya məni təkcə ADPU-nun müəllimi kimi deyil, həm də bir vətəndaş olaraq narahat edir.**

Bu mənada istərdim ki, əməkdaşı olduğum universitetə, rektorumuz, professor Cəfər Cəfərova ünvanlanan qarayaxmaya münasibət bildirim. Bəri başdan qeyd edim ki, söylədiyim fikirlər sifarişli deyil, hür iradəmin ifadəsidir...

### Hər şey 2016-cı ildən başladı...

Səhər tezdən sadə geyimli bir müəllim ADPU-nun əsas girişindən əmin addımlarla universitetə daxil oldu. Ətrafında uzun qalstuklu, hər kəsə nifrətlə baxan, əlahəzrət rəhbəri "mühafizə" edən qorxulu adamlar yox idi... Hər kəs təəccüblənmişdi... Axı ADPU-nun müəllim və tələbələri uzun illər idi ki, rəhbərin "ordu" ilə gəzişinə, nadir hallarda görünməsinə alışmışdı...

*** Gələn ADPU-nun yeni rektoru, professor Cəfər Cəfərov idi...**

### Yeni rektorun gəlişi bəziləri üçün bir ümid, kimiləri üçün faciə, biriləri üçün isə fürsət idi..

Professor Cəfər Cəfərovun ADPU-ya təyinatı, elmi işini uğurla müdafiə edib müəllim işləmək istəyən, lakin "adamı" və "pulu" olmayanlar, rüşvətsiz imtahan verib müəllim olmağı arzulayanlar, rektoru görüb ona dərdini demək istəyənlər üçün bir ümid işığı idi...

Həqiqətən də, çox keçmədi ki, ADPU-da müəllim, laborant və digər vəzifələrdə çalışmaq istəyənlərə ədalətli şərtlərlə - müsabiqə yolu ilə seçilmək, tələbələrə rüşvətsiz imtahan vermək imkanı yaradıldı.

*** Tədrisin keyfiyyətinin yaxşılaşdırılması, idarəçiliyin optimallaşdırılması, elmi mühitin canlandırılması naminə asaslı addımlar atılmağa başlanıldı...**

Bütün bunlara rəğmən əli pulla oynayanlar, xalaoğlu baş dispetçerlər, bircə ilə test cavablarını satıb son model maşın alanlar, "yuxarıdan" gəlmiş telefon zənginə görə universitetin koridorları ilə rəhbərin otağına qaça-qaça gedən ahıl dekanlar, iyirmi il rəhbər vəzifədə mürgüləyənlər, yarım milyona akt zalı təmir edənlər, yüz yaşı olan bir universiteti ailə müəssisəsinə çevirənlər, bankomatik işçilər, ölü canlar, on il test oyunundan millətin gələcəyini məhv edib "qazanan"lar yaza-yaza bitirə bilmədiyim kimsələr üçün isə yeni rəhbərin gəlişi əsl faciə idi..

*** İndi onların bir qismi "bəlkə də qaytardılar", bir qismi də "ötən günlərimi qaytaraydılar, gələn günlərimi qurban verərdim" havasını çalırlar...**

### Yalanlarınız o qədər ağdır ki, deməyə söz tapmıram..

Yazırsınız: "Doğrudur, bəzi obyektiv səbəblərlə əlaqədar universitetdə rüşvət problemi nisbətən həll olunub. Amma bu heç də rektorun uğuru hesab oluna bilməz. Çünki hazırda imtahanlar kompyuter vasitəsilə götürüldüyündən, respublikamızın əksər ali təhsil müəssisələrində tələbə-müəllim təmasının qarşısı alınıb." Üç cümlə qurmusunuz, üçü də köməkçi nitq hissəsi ilə başlayır. Üçü də yanlışdır. Birinci cümləniz ona görə yanlışdır ki, ADPU-da tələbə ilə müəllim arasında rüşvət anlayışı nisbətən yox, tamamilə aradan qaldırılıb, cəhd edənlər universitetdən qovulur. İkinci cümləniz ona görə yanlışdır ki, universitetdə kök salmış rüşvətə məhz son üç ildə son qoyulub. Nəhayət, üçüncü cümləniz ona görə yanlışdır ki, son üç ildə ADPU-da imtahanlar yazılı qaydada aparılır. Əsas mənbədən, əsas nitq hissələri ilə başlayan, əsaslandırılmış xəbərlər qurun!

Yazırsınız ki, ADPU-da müəllimlər dünyasını dəyişdi. ADPU-da yüzlərlə insan çalışır, əməkdaşlarımızın müəyyən bir hissəsinin yaşı 70-dən yuxarıdır. Arasında elminə, şəxsiyyətinə hörmət etdiyim qocaman müəllimlərimin də olduğu bu insanların bir qismi təqaüdə çıxmış, bir qismi dünyasını dəyişmiş, bir qismi fəaliyyətini davam etdirməkdədir. Belə insanların yaşaması və ya dünyasını dəyişməsi ilə rəhbər arasında əlaqə qura bilmə fantaziyanıza məəttəl qalmamaq mümkün deyil.

ADPU-da gedən ciddi kadr islahatları sizi əsassız yerə narahat edir. Ötən on il ərzində əyri yollarla başı pul qazanmağa qarışan, elmi, tədrisi unudan, yalnız rəhbərə baş əyməyi bacaran "baş"larla işləmək, islahat aparmaq, universitetin kadr hazlığında əsaslı dönüş etmək mümkün deyil. İndi o "baş"lar baş qaldırıb deyir ki, ADPU-da müəllim işləmək, saathesabı dərs demək, ailəmi dolandırmaq istəyirəm. Xub, yaxşı fikirdir. O zaman sizə bir neçə sualım var. Ey bir zamanlar adının, kabinetinin qarşısında "baş" yazılanlar, siz ötən illər ərzində elmlə məşğul oldunuzmu, elmi nəşrlərdə məqaləniz çap olundumu, elmi iş götürüb müdafiə etdinizmi? Saathesabı dərs demək istədinizmi? İstəmədiniz, çünki üç il öncə başınız "baş" olmağa qarışmışdı, işləriniz əyri yollarla "düz" gedirdi. İndi haqsız yerə döymədiyiniz qapı, atmadığınız iftira qalmayıbdır. Gah əsassız yerə milli kimliyinizi gözə soxur, gah da keçmişinizdən bixəbər sadə insanların hisslərini istismar edirsiniz. Keçməyəcək!

Yazırsınız ki, rektor ADPU-nu dünya səviyyəsində təmsil edən nüfuzlu elm adamının əvəzinə həyat yoldaşının xalasıoğlunu, heç bir elmi dərəcəsi olmayan Arzu Daşdəmirov adlı birini dekan təyin edib. Mənbəniz kimi özünüz də məlumatsızsınız. Əvvəla, Arzu Daşdəmirov fizika-riyaziyyat üzrə fəlsəfə doktorudur, dosentdir, gəncdir, yaradıcı və idarəçilik potensialına malik alimdir, ikincisi, o nüfuzlu elm adamınızın dekan olmadan Azərbaycan elmini dünya səviyyəsində təmsil etməsinə mane olanmı var? İyirmi il dekan olmaqmı olar? Bəlkə, ADPU-nun dekanı vəzifəsi o nüfuzlu elm adamının adına ömürlük bron edilib?

Məlumat üçün qeyd edim ki, son üç ildə ADPU-nun Fizika və texnologiya, Filologiya, Tarix və coğrafiya fakültələrində dekan seçkisi keçirilmiş, fakültənin professor-müəllim heyətinin etimadını qazanmış namizədlər dekan seçilmişdir və bu proses davam etməkdədir.

*** Dəqiqləşdirilməmiş məlumatlarınız, ictimaiyyəti çaşdıran qərəzli iftiralarınız, birtərəfli "xəbərləriniz", şou xarakterli informasiyalarınız bununla bitmir...**

Bir neçə həftə öncə yazırsınız.. "ADPU əməkdaşından qalmaqallı açıqlama"... xəbərinizi oxuyuram, məlum olur ki, gənc, subay əməkdaşımız Nazir Nağıyev şəxsi "Facebook" səhifəsində 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları zamanı çəkdirdiyi bir neçə fotoşəkli yayımlayıb və müəyyən fikirlərini bildirib. Siz ondan şou-xəbər düzəldibsiniz. İndi nə deyirsiniz, ADPU əməkdaşının heç bir sosial həyatı, şəxsi düşüncəsi olmamalıdır? Halbuki Azərbaycan Respublikasının Konstitusiyasının 47-ci maddəsinin 1-ci bəndində yazılıbdır: "Hər kəsin fikir və söz azadlığı vardır.Yenə həmin Konstitusiyanın 32-ci maddəsinin 2-ci bəndində yazılır ki, öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanmasına, saxlanılmasına, istifadəsinə, yayılmasına yol verilmir. ADPU-da "qanunsuzluq" axtarışına çıxanlar, özünüzdən başlayın...

Professor Cəfər Cəfərovun sadəliyi, peşəkarlığı, universitetin müəllim və tələbə heyəti ilə birbaşa dialoqa girməsi, ünsiyyətdə olması, özü ilə əməkdaşları, tələbələri arasında sədd çəkməməsi, inancılı bir insan olması, dövlətinə, Prezidentinə, ümummilli lider Heydər Əliyev ideallarına sadiq olması, təhsilə qazanc gözü ilə baxanlarla mübarizəyə başlaması yeniliyə, inkişafa qarşı olan radikal qüvvələr, sözün hər mənasında üçüncü olanlar üçün isə suyu bulandırmağa fürsətə çevrildi...

Fikrimi Uca Türk xalqının ana kitabı olan "Kitabi-Dədə Qorqud" dastanında Dədə Qorqudun hikmətli sözləri ilə tamamlamaq istərdim:

Çalıb kəsər üz qılıncı müxənnətlər çalınca çalmasa yey..

Çala bilən igidə oxla qılıncdan bir çomaq yey..

Yalan söz bu dünyada olunca, olmasa yey...

**Bəhram Cəfəroğlu,**
ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Qaz Emalı Zavodu

**NaCl duzuna olan tələbatını təmin etmək məqsədi ilə (30001-19) açıq satınalma müsabiqəsinin LOT-1 üzrə müsabiqə müddətinin uzadıldığını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 20.05.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi hər lot üzrə ayrı-ayrılıqda bir əsli və 1 surəti olmaqla 24.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər

Lot 1 üzrə - 59 manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Satınalan təşkilatın ünvanı:***
AZ 1063, Bakı səhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi.
SOCAR, Qaz emalı zavodu.
**Əlaqələndirici şəxs:**
Fayiq Babayev
Maddi Texniki Təchizat və Kommersiya şöbəsinin, rəisi
korporativ telefon nömrəsi: +99412 521 20 56 - 30 017 (daxili)
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Fayiq.babayev@socar.az

***V. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VI. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 24.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Qaz Emalı Zavodunun Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Neft Kəmərləri İdarəsi

**Avadanlıq və mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (13005-19) zərflərin açılışı tarixinin uzadıldığını elan edir.**

Müsabiqə 3 lot üzrə keçirilir:
1-ci lot: Boyalar
2-ci lot: Yağlar
3-cü lot: Mal-materiallar

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 27.05.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 30.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 1-ci lot üzrə 59 manat (ƏDV daxil), 2-ci lot üzrə 59 manat (ƏDV daxil), 3-cü lot üzrə 118 manat (ƏDV daxil), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü müddətinə yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Xocalı pr., 28;
**Əlaqələndirici şəxs:**
İsmayılzadə Rövşən Yaşar oğlu.
Neft Kəmərləri İdarəsinin Satınalmalar şöbəsinin Böyük mühəndisi
+994125210000 (daxili 13035)
+994125210000 (daxili 13036) (faks)
+994508413035 (mobil)
Rovshan.Ismayilzade@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Neft Kəmərləri İdarəsinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil
Son səhifə
16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 87 (7342) / Çərşənbə, 15 may 2019-cu il

# BİLİRDİNİZMİ?



### Gülümsəməyimizi niyə idarə edə bilmirik?

Bu, emosiyalara görədir. Üz ifadələrimizin vəzifəsi bir-birimizi daha yaxşı anlaya bilmək üçün hisslərimizi digər insanlara göstərməkdir. Yəni gülümsəmənin qarşısını almaq üçün tək əzələni deyil, həmçinin emosiyaları kontrol etmək lazımdır. Bu isə adi qol, əl və s. əzələləri kontrol etməkdən daha çətindir.

### Helium niyə səsi dəyişir?

Çünki helium aşağı sıxlığa malikdir. Səs telləri hava axınında elastik şəkildə titrəyirlər. Heliumda sıxlıq oksigendən bir neçə dəfə aşağı olur, səs tellərini daha az yükləyir, səs telləri daha sürətli titrəyir, səs daha cır olur.

Əgər bir qadın ağır qaz olan kükürd ftorid ilə nəfəs alsa, bu qaz oksigendən sıx qaz olduğu üçün onun səsi kişi səsi kimi qalın çıxacaq.

### Sülh simvolu olan “pasifik” necə yaranıb?

Pasifik və ya sülh simvolu 1958-ci ildə Britaniyada nüvə silahlarının istifadəsinə qarşı etiraz aksiyası üçün britaniyalı dizayner Cerald Holtom tərəfindən hazırlanıb.

Sülh nişanı Semafor əlifbasında N və D hərflərinin birləşməsidir, (ingiliscə Nuclear Disarmament) “nüvə tərksilah” deməkdir.

Semafor- dəmir yollarında qatarların hərəkətini tənzimləmək üçün yarımavtomat mexaniki qurğudur.

### Necə olur ki, telefondan şəbəkə tutmayanda belə təcili nömrəyə zəng etmək olur?

Normal zəng edə bilmək üçün telefonunuz istifadə etdiyiniz operatorun şəbəkəsinə qoşulmalıdır. Əgər olduğunuz yerdə istifadə etdiyiniz operatorun şəbəkəsi tutmursa, təcili zəng üçün digər yerli operatorların şəbəkəsinə qoşulur. Əgər yerli operatorların heç birinin şəbəkəsi tutmursa, yaxınlıqda olan istənilən antena vasitəsilə təcili zəng edəcək. Bu antenalar polis rabitəsi antenası, hərbi antena, bölgədə yerləşən istənilən şirkət antenası və digər antenalar ola bilər. Bu cür antenalar siz çətində olduqda təcili zəng edə bilərsiniz deyə telefonunuzun onlara qoşulmasına icazə verir. Buna görə də telefonunuzda normal şəbəkə olmadıqda belə siz təcili zəng edə bilirsiniz.

### Armudu stəkan niyə məhz armud formasındadır?

1850-ci illərdə Avropada sənaye inqilabından sonra inkişaf edən şüşə sənayesi ilə şüşə stəkan yarandı. Avropada istehsal olunan çay stəkanlarının ayaqları və qulpları olduğu üçün bu stəkanlar nazik şüşədən hazırlanırdı və ayağı ilə qulpu yox idi. Qulpu olmayan bir stəkanın içərisinə isti maye töküldükdə onu tutarkən əli yandıracağına görə stəkanın forması onu iki barmaqla boğazından tutaraq saxlaya bilmək üçün bu formada düzəldilmişdi. Düzdür, bu stəkan haqqında başqa fikirlər də var: çay dibində isti qalır, ağız hissəsi çayı soyudur, çay qalıntısı dibindən ağzına gəlmir və s.

### HDR nədir?

Fikir vermisinizsə, HDR funksiyasını aktiv edəndə telefon daha yaxşı şəkil çəkir. HDR (High Dinamic Range) yüksək dinamik aralıq deməkdir.

Biz şəkil çəkəndə kadrda çox qaranlıq və çox işıqlı hissələr olur. Normalda kamera ya qaranlıq hissəni çox qara çəkib qalan yerləri normal çəkir. Və yaxud da əksinə, ağ yerləri ağappaq çəkib qalan yerləri normal çəkir. Bu aşağı dinamik aralıqdır. HDR rejimdə kamera bir neçə şəkil çəkir, bunlardan bəzilərində ağ yerləri yaxşı düşür, qara yerlər pis, bəzilərində qara yerlər yaxşı düşür, ağ yerlər pis və bütün bu şəkilləri üst-üstə birləşdirib bizə göstərir. Bu, yüksək dinamik aralıqdır. HDR rejimdə şəkil çəkəndə kamera 2-3 və daha çox şəkil çəkdiyi üçün kameranı tərpətmək olmaz. Tərpətsək şəkil bulanıq alınacaq.

### Android telefonlarda rut (root) nədir?

Rut, kök, özül, məğz deməkdir. Android telefon istifadə edən istənilən istifadəçi telefonun administratoru deyil və buna görə də bir çox məhdudiyyətlərlə üzləşir. Məsələn, telefonda əvvəlcədən quraşdırılmış bəzi proqramları silə bilmirik, proqramların bizə göstərdiyi reklamların qarşısını ala bilmirik və s. Çünki biz telefonu adi istifadəçi rejimində istifadə edirik. Əgər telefonu root etsək, bu zaman telefonun administratoru oluruq və tam səlahiyyət bizdə olur. Rott olunmuş telefonda hətta zəng, sms, musiqi, kamera və s. kimi standart proqramları da silə bilərik. Androidin standart düyməiərinin funksiyasını dəyişə bilərik.

Bəs root belə yaxşıdırsa, niyə telefonlar əvvəlcədən fabrikdə belə istehsal olunmur?

Çünki root həm də təhlükəlidir. Səhvən hansısa proqramı silə bilərik və bu zaman telefonumuz normal işləməz. Buna görə də telefonlar əvvəlcədən root rejimində olmur.

✍ **Röya Rasimqızı,**
***“İki sahil”***

# “BARSELONA” “AYAKS”IN KAPİTANINI TRANSFER EDİR



“Ayaks”ın kapitanı Matteis de Liqt karyerasını İspaniyanın ”Barselona” klubunda davam etdirə bilər.

Milli.Az Kataloniya radiosuna istinadən xəbər verir ki, 19 yaşlı müdafiəçinin transferi ilə bağlı böyük ölçüdə anlaşma əldə edilib. Transferin yaxın günlərdə açıqlanacağı gözlənilir.

“Barselona” daha öncə ”Ayaks”dan Frenki de Yonqu 75 milyon avroya transfer edib.

# PSJ “REAL”IN 3 ULDUZUNU BİRDƏN İSTƏYİR



PSJ “Real”ın bir neçə futbolçusu ilə maraqlanır.

Milli.Az fanat.az-a istinadən xəbər verir ki, Fransa təmsilçisi İsko, Toni Kroos və Qaret Beyli rənglərinə bağlamaq niyyətindədir.

Zinəddin Zidanın gələn mövsüm komandada görmək istəmədiyi futbolçuları transfer etmək o qədər də çətin olmayacaq.

Bununla yanaşı, ”Real” İskoya 60, Kroosa 80, Beylə görə 70 milyon avro transfer haqqı istəyir.

# ÜRƏK RİTMLƏRİNİ ÖLÇƏN AĞILLI ÜZÜK HAZIRLANIB



Cənubi Koreyalı tədqiqatçılar ürək döyüntülərini dəqiqliklə qeyd edən ”ağıllı” üzüyü sınaqdan keçiriblər.

Milli.Az chip.az-a istinadən bildirir ki, tədqiqatçılar üzüklərin yaxın vaxtlarda ürək döyüntülərinin normal olub-olmadığını təyin etmək üçün istifadə ediləbiləcəyinə ümid edirlər.

Bu həftə keçirilən ”Heart Rhythm” dərnəyinin elmi sessiyalarında təqdim edilən araşdırmada ürək ritmləri pozulan 119 xəstədə eyni zamanda EKQ-lər və optik sensor əsaslı fotopletismografiler qarşılaşdırılıb. Tədqiqatçılar faktiki təsnifat üçün ortalama təhlükəsizlik səviyyəsinin 98,6% olduğunu qeyd ediblər.

Seul Milli Universitet Xəstəxanasının kardioloji professoru Eue-Keun Choi dəqiqliklə öyrənmə alqoritminin yeni hazırlanan ”ağıllı” üzük vasitəsi ilə günlük aktivlik dərəcəsinin təyin etmək istədikləri, tibbi cəhətdən isə üzüyün ürək ritmlərini qeyd etməsi üçün də istifadə olunmasına ümid etdiklərini vurğulayıb.

Ağıllı saatların gündəlik və ya həftəlik batereya ilə təmin edilməsi probleminin mövcudluğu baxımdan sözü gedən üzüklərin ürək ritmlərini daimi qeyd etməsinin mümkün olmayacağı düşünülür. Ancaq ağıllı saatların ekran, qabaqcıl prosessor və bildirişlər kimi funksiyalarının üzükdə istifadə olunmamamsı bu problemi aradan qaldıracaq. Üzüklərin ürək ritmlərini qeydə alan böyük və çox bahalı cihazlara rəqib olacağı gözlənilir.

**ELAN:**

***1995-ci ildən qeydiyyata alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun “Fizika” jurnalının qeydiyyatını təsdiq edən sənəd itdiyi üçün etibarsız sayılır.***

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet “İKİ SAHİL”in kompyuter mərkəzində yığılır və “AZƏRBAYCAN” nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 15.05.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8214
İndeks: 0151, Sifariş: 1389

Qəzetdə “AZƏRTAC”, “OLAYLAR”, “Azadİnform”, “TREND”, SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.